**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARIN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Həsənova Aysel Arzu**

**BAKI - 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________imza**

**“____” ______________ 2022_-ci il**

# “İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARIN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060402-Mühasibat uçotu və audit

**İxtisaslaşma:** İstehsal sferasında mühasibat uçotu və audit

**Qrup:** 406

**Magistrant:**
**Aysel Həsənova Arzu qızı**

**________________imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Cəfərov Elxan Orxan oğlu**
**__________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**___________________ imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Aysel Həsənova Aysel qızı and içirəm ki, "İşğaldan azad edilmiş ərazilərdə yaradılan istehsal müəssisələrində vergi güzəştlərinin tətbiqi xüsusiyyətləri və onların qiymətləndirilməsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normaları və istinad qaydalarına tamamilə riayət edərək və istifadə etdiyim mənbələrin hamısını ədəbiyyat siyahısında əks etdirərək yazmışam.

# “İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARIN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI”


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: İşğaldan azad edilmiş rayonların kənd təsərrüfatı müəssisələrinin inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsində , təbii resurslardan səmərəli istifadə olunmasında mühüm rol oynayır.“ Azərbaycan Respublikası regionlarının sosial – iqtisadi inkişafı Dövlət Proqramları “nda hazırlanmış tədbirlərin reallaşması kənd təsərrüfatı məhsul istehsalının artmasına , səmərəli təsərrüfat formalarının yaradılmasına , ərzaq təhlükəsizliyinin təmin edilməsinə, rəqabət qabiliyyətli məhsul istehsalına gətirib çıxaracaq.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkili , onların bərpa prosesinin təşkilinin metodiki və praktiki qaydalarının öyrənilməsidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya mövzusunda tədqiqat işinin hazırlanma prosesi zamanı materialları toplamaq , onları təhlil etmək , yekun bir nəticəyə gəlmək üçün qruplaşdırma , müqayisəli təhlil , müşahidə, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın hazırlanma prosesi zamanı dövlət qanunvericiliyindən , Azərbaycan Respublikası Prezidentinin fərmanları , Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarları və digər normativ hüquqi aktlarından , Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Statistika Komitəsinin məlumatlarından, yerli və xarici ölkələrdə təşkil olunan konfranslardan və nəşr olunan məqalələrdən , bir sıra veb - saytlardan istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: İşğaldan azad olunmuş rayonların uzun müddət əsarət altında olması onlar haqqında daha ətraflı məlumat toplamaq üçün əsas məhdudiyyətlərdən biridir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Aşağıda göstərilənlərdən təşkil olunmuşdur: İşğaldan azad edilmiş rayonların kənd təsərrüfatı müəssisələrinin inkişafı ilə yeni iş yerlərinin yaradılması və məşğulluğun təmin edilməsi məqsədilə tədqiq edilmişdir. Yenidənqurma və bərpa prosesinin daha sürətli olması üçün yerli və xarici şirkətlərin cəlb edilməsinin ən yaxşı yollarının tapılması üçün araşdırma aparılmışdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın əldə olunmuş nəticələrindən kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkilinin aparılmasında , konflikt zamanı zərər görmüş təsərrüfat subyektlərinin bərpa və yenidəqurma prosesinin daha səmərəli və məhsuldar həyata keçirilməsində istifadə oluna bilər.**



**Açar sözlər: kənd təsərrüfatı müəssisələri , mühasibat uçotu, bərpa və yenidənqurma**

**“PROBLEMS OF ORGANIZATION OF ACCOUNTING IN AGRICULTURAL ENTERPRISES OF LIBERATED REGIONS AND WAYS OF SOLUTION”**

**SUMMARY**

**The actuality of the subject: The development of Agriculture of the liberated regions and enterprises operating in this field plays an important role in ensuring food security , in the effective use of Natural Resources. At the same time , implementation of measures prepared in the adopted “ state programs on socio – economic development of the regions of the Republic of Azerbaijan “will lead to increase of agricultural production , creation of more rational economic forms, provision of food security in the country, production of competitive products. Agricultural enterprises to be restored and reconstructed in the liberated regions will also play an important role in this development.**

**Purpose and tasks of the research: The main purpose of the study is to study the methodological and practical rules for organizing accounting in agricultural enterprises in the areas liberated from occupation , the process of their recovery..**

**Used research methods: İn the process of preparing the research work on the topic of the dissertation , methods of grouping , comparative analysis , observation, generalization were used to collect materials, analyze them and come to a final conclusion.**

**The information base of the research: State legislation , decrees of the president of the Republic of Azerbaijan , resolutions of the Cabinet of Ministers of the Republic of Azerbaijan and other normative legal acts , information of the Ministry of Agriculture and State Statistics Committee, conferences organized in local and foreign countries and published articles , a number of websites were used during the preparation process.**

**Restrictions of research: The long-term enslavement of the liberated regions is one of the major limitations to gather more detailed information about them.**

**The novelty and practical results of investigation: They were studied in order to create new jobs and provide employment with the development of agricultural enterprises of the liberated regions. The study was conducted to find out the best ways to attract domestic and foreign companies so that the reconstruction and restoration process is faster.**

**Scientific-practical significance of results: The results of the study can be used in the organization of accounting in agricultural enterprises , more efficient and efficient implementation of the recovery and re-equipment of economic entities damaged during the conflict.**

**Keywords: Agricultural enterprises, Accounting, Restoration and reconstruction**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **MHBS** | Maliyə Hesabatlarının Beynəlxalq Standartları |
| **EKTİS** | Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **FADN** | Farm Accountancy Data Network |

MÜNDƏRİCAT

**GİRİŞ**.......................................................................................................... 9

**I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ**........................................................................ 133

1.1. Müharibədən sonrakı dövrdə dünyada toplanmış təcrübələrə əsaslanan kənd təsərrüfatı müəssisələrində uçotun təşkili və tətbiqində yaranmış çətinliklər ...................................................................**Ошибка! Закладка не определена.**3

1.2. İşğaldan azad olunmuş rayonların kənd təsərrüfatı müəssisələrinin innovasiyalı inkişafının prioritet istiqamətləri...................**Ошибка! Закладка не определена.**

1.3. Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin xüsusiyyətlərini əks etdirən mühasibat uçotunun təşkili ilə bağlı qanunvericilik.**Ошибка! Закладка не определена.**

**II FƏSİL. ZƏNGİLAN RAYONUNUN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ**................................**Ошибка! Закладка не определена.**4

2.1. İşğaldan əvvəl Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun aparılması üzrə mövcüd vəziyyətinin təhlili**Ошибка! Закладка не определена.**

2.2. Mühasibat uçotunun təşkili ilə bağlı Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin dayanıqlı inkişafı istiqamətində görüləcək işlər və planlaşdırılan tədbirlər ........................................................................................................ 41

2.3. Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin dayanıqlı inkişafında səmərəli texnologiyaların tətbiqi və yeni infrastukturun yaradılması ilə bağlı uçot siyasətinin tətbiqi xüsusiyyətləri.................**Ошибка! Закладка не определена.**1

**III FƏSİL. ZƏNGİLAN RAYONUNUN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ İLƏ BAĞLI YARANMIŞ PROBLEMLƏRİN HƏLLİ YOLLARIОшибка! Закладка не определена.**5

3.1. Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin istehsal potensialını artıran güzəşt və imtiyazların mühasibat uçotunda əks etdirilməsi ........................ 55

3.2. Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkilində dünya ölkələrinin təcrübəsinin tətbiqi**Ошибка! Закладка не определена.**0

3.3 Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin dayanıqlı inkişafında səmərəli texnologiyaların tətbiqi və yeni infrastukturun yaradılması ilə bağlı dünya ölkələrinin təcrübəsinə əsaslanan uçot qaydaların təkmilləşdirilməsi……………66
**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 69**
**İSTİFADƏ OLUNUMUŞ ƏDƏBİYYAT SİYAHISI ........................................ 72**

Cədvəllərin Siyahısı ......................................................................................... **75**
Diaqramların Siyahısı ........................................................................................ **75**

# GİRİŞ

**Mövzunun aktuallığı:** İşğaldan azad olunmuş rayonlarda şəxsi təşəbbüskarlığın stimullaşdırılması, yerli və xarici investisiyaların cəlb edilməsinin təkmilləşdirilməsi üçün tədbirlər görülür. İşğaldan azad edilmiş ərazilərdə əmək ehtiyatlarının səmərəli idarə edilməsi ilə aqrar sahədə dayanıqlı inkişafa nail olmaq mümkündür. Problemin aktuallığı bu sahədə yenidənqurma və maarifləndirmə işlərinin aparılmasını zəruri edir. İnnovasiya fəallığını artırmaq və iqtisadi canlanmanın təşkili, bu sahədə fəaliyyət göstərəcək müəssisələr üçün stimullaşdırıcı tədbirlər məqsədilə təkliflər hazırlanır. Təkliflərdə azad edilmiş rayonlarda çalışacaq sahibkarlar üçün kredit , vergi, gömrük və kommunal xidmətlər üzrə güzəştlərin tətbiqi, maliyyə mənbələrinə daha asan çıxışın təşkili kimi dəstək tədbirləri əksini tapacaqdır. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı subyektlərinin fəaliyyəti üçün münbit şəraitin yaradılması bölgələrin inkişafında sahibkarlığın inkişafı üçün əsas meyardır. Bərpa konsepsiyası azad edilmiş rayonların kənd təsərrüfatı müəssisələrində artımı sürətləndirəcək və daha çox vəsait cəlb olunmasına kömək edəcək. Bu ərazilərin yenidən dirçəlməsi məqsədilə edilən bütün güzəştlər müəssisələrin, sahibkarlığın, biznesin inkişafına təkan verəcək. Bütün bu qeyd edilənlər mövzunun seçilməsinin aktuallığını göstərir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Kənd təsərrüfatı müəssisələrində uçot siyasətinin formalaşdırılmasının metodoloji əsaslarının araşdırılması V.N.Jukova , V.R.Zaxarina, R.A.Alborova , S.V.Belova , A.Y.Fridland , M.A.Pyatova, E.N.Bondar , M.R.Metyus xarici alimlər tərəfindən tədqiq edilmişdir. Yerli alimlərdən Z.Ə.Səmədzadə , B.X.Ataşov , A.R.Kərimov , B.Q.Xəlilov , A.Verdiyev və başqaları bu sahədə araşdırmalar aparmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi müharibələrin kənd təsərrüfatı sahələrinə vurduğu ziyanlar və münaqişələrdən sonra dağıdılmış sahələrin bərpasında dünya təcrübəsinə əsaslanaraq qısa zaman ərzində dayanıqlı inkişafa nail olmaqdır. Eyni zamanda azad edilən ərazilərdə bərpa nəticəsində əldə olunacaq istehsal göstəricilərinin proqnozlaşdırılmasıdır. Bunun üçün tədqiqatda aşağıdakı vəzifələr qoyulub:

• İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı müəssisələrinin yenidənqurma prosesinə investisiya cəlb ediciliyinin daha səmərəli yollarının tapılması məqsədilə tədqiq edilməsi;

• İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı müəssisələrində dünya təcrübəsinə əsaslanaraq uçotun təkmilləşdirilməsinin ən yaxşı yollarının tapılması üçün araşdırma aparılması;

• Qabaqcıl dünya ölkələrinin münaqişələrdən sonra əvvəlki istehsal güclərini bərpa etmək üçün tətbiq etdikləri layihə - planların mühüm tənzimlənmə aləti kimi tədqiq edilməsi;

•Zəngilan rayonunda fəaliyyət göstərəcək təsərrüfat subyektlərinin səmərəliliyinin artırılması məqsədilə ediləcək güzəştli kredit və vergi siyasətinin tətbiqi məsələlərinə baxılması ;

• İşğaldan azad olunmuş rayonlarda vergi güzəştlərinin tətbiqinin səmərəlilik və nəticəlilik baxımından qiymətləndirilməsinin araşdırılması;

• Zəngilan rayonunda fəaliyyət göstərəcək kənd təsərrüfatı subyektlərinin sosial rifahının yaxşılaşdırılması məqsədilə qanunvericilik çərçivəsində həyata keçiriləcək tədbirlərin tətbiqi;

• Kiçik və orta sahibkarlıq subyektlərinin stimullaşdırılması üçün mühasibat uçotu standartlarının və qaydalarının təkmilləşdirilməsinin tədqiqi;

**Tədqiqatın obyekti və predmeti:** Araşdırmamın obyekti Azərbaycanın işğaldan azad edilmiş rayonlarında kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkilində yaranacaq problemlərin həll olunmasıdır. Tədqiqatın predmetini işğaldan azad edilmiş rayonlarda yeni infrastruktur sahələrinin yaradılması və innovasiyaların tətbiqi ilə dayanıqlı inkişafa nail olunması xüsusiyyətlərinin qiymətləndirilməsi yollarının tədqiqi təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya işinin nəzəri və metodoloji əsasını müvafiq ədəbiyyatlarda öz əksini tapmış xarici və yerli tədqiqatçıların işləri təşkil etmişdir. Tədqiqatın informasiya bazasını Maliyyə Nazirliyi , Dövlət Vergi Xidməti orqanları, Dövlət Statistika Komitəsinin statistik məcmuələri təşkil etmişdir. Tədqiqat işində emprik, statistik paylanma, müqayisəli təhlil üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işinin hazırlanmasında informasiya bazası kimi Azərbaycan Respublikası qanunları , İqtisadiyyat Nazirliyinin illik hesabat materialları, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən qərarlar, Azərbaycan Respublikası Prezidentinin verdiyi sərəncamlar , yerli və xarici ədəbiyyatlardan , mövzuya uyğun olaraq bir çox ədəbiyyatlardan (rus, türk , ingilis), statistik məlumatlardan, internet resurslarından və başqa vəsaitlərdən istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Mövzunun araşdırılmasında əsas məhdudiyyət həmin ərazilərin uzun müddət işğal altında qalması və Azərbaycan dilində ədəbiyyatın az olmasıdır.

**Tədqiqatın elmi yeniliyi:** Bu işin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

• İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkilinin daha səmərəli yollarının tapılması məqsədilə tədqiq edilmişdir;

• Regionun mövcud potensialı nəzərə alınaraq yaradılacaq müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılmasının təkmilləşdirilməsi üzrə təkliflərin işlənib hazırlanmışdır.

• İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı müəssisələrinə ediləcək güzəştlərin tətbiqi xüsusiyyətləri və qiymətləndirilməsinin ən yaxşı yollarının tapılması üçün araşdırma aparılmışdır;

• Zəngilan rayonunda həyata keçirilməsi nəzərdə tutulan “ Ağıllı şəhər “ , “Ağıllı kənd “ layihələri bərpa prosesinin əsas aləti kimi tədqiq edilmişdir;

• Fəaliyyət göstərəcək kənd təsərrüfatı subyektlərinə ediləcək kredit , vergi , gömrük və digər güzəştlərin effektivliyi araşdırılmışdır;

• Kənd təsərrüfatı müəssisələrində tətbiq edilməsi nəzərdə tutulan güzəşt və imtiyazlar , eləcə də onların büdcənin gəlirinin formalaşmasına təsiri tədqiq edilmişdir;

• İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığı stimullaşdıran güzəştlərin tətbiqi problemlərinə baxılmışdır;

• İşğaldan azad edilmiş ərazilərdə tətbiq ediləcək innovasiyaların səmərəlilik və nəticəlilik baxımından qiymətləndirilməsi araşdırılmışdır;

• İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı müəssisələrində qısa zaman ərzində səmərəlilik və nəticəlilik göstəricilərinin yüksəldilməsi yolları araşdırılmışdır;

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın əldə olunmuş nəticələrindən kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkilinin aparılmasında , konflikt zamanı zərər görmüş təsərrüfat subyektlərinin bərpa və yenidəqurma prosesinin daha səmərəli və məhsuldar həyata keçirilməsində istifadə oluna bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ

## 1.1. Müharibədən sonrakı dövrdə dünyada toplanmış təcrübələrə əsaslanan kənd təsərrüfatı müəssisələrində uçotun təşkili və tətbiqində yaranmış çətinliklər

Keçmişə nəzər salsaq görərik ki , dünyada baş vermiş münaqişələrdən sonra kənd təsərrüfatı müəssisələrinin yenidən qurulmasında Avropa, Yaponiya və Tayvan üçün Marşal planı tam uğurlu olmuşdur. Bu nümunə təkcə kənd təsərrüfatı sektorunun bərpasına öz töhfəsini vermədi , eyni zamanda bütün iqtisadiyyatın sürətli artımına şərait yaratdı.

İkinci Dünya Müharibəsindən sonra Avropanın yenidən qurulması niyə bu qədər uğurlu oldu? 1947 – ci ilin iyun ayının 5 – də Dövlət katibi Corc K. Marşall Harvard Universitetindəki çıxışında ABŞ tərəfindən maliyyələşdiriləcək Avropa özünəyardım proqramı ideyasını irəli sürdü və 1947-ci ildən başlayaraq Birləşmiş Ştatların Marşal Planı kimi tanınan Avropa Bərpa Proqramı işə salındı. Bu , ABŞ – ın Qərb və Cənubi Avropanın 17 ölkəsinin iqtisadiyyatının yenidən qurulması üçün büdcə dəstəyi proqramı idi. İlk növbəti dörd il ərzində sənaye və kənd təsərrüfatını bərpa etməyə , maliyə sabitliyinə nail olmağa , ticarəti genişləndirməyə kömək etmək məqsədilə 13 milyard dollar məbləğində vəsait paylandı. Yardımların böyük əksəriyyəti birbaşa subsidiyaların, qalan hissəsi isə borcların payına düşürdü. Böyük Britaniya və Fransa başda olmaqla 16 ölkənin Avropa iştirakının əlaqələndirilməsi üçün dördillik bərpa proqramı təklif etmək üçün Avropa İqtisadi əməkdaşlıq Komitəsi yaradılmışdır. Daha sonra bu təşkilat Qərbi Almaniyanın son nəticədə qəbul etdiyi daimi Avropa İqtisadi əməkdaşlıq Təşkilatı ilə əvəzləndi. (https://www.britannica.com/event/Marshall-Plan 2020)

Marşal planına daxil olan ölkələr və alınan yardım həcmləri aşağıdakı cədvəldə əks olunmuşdur :

**Cədvəl 1: Marşal planına daxil olan ölkələr və alınan yardım həcmləri məbləğlər (ABŞ dolları milyonlarla)**

| | | | | |
|---|---|---|---|---|
| **Avstriya** | **488** | | **Qərbi Almaniya** | **1448** |
| **Belçika və Lüksemburq** | **777** | | **Yunanıstan** | **366** |
| **Danimarka** | **385** | | **İslandiya** | **43** |
| **Fransa** | **2296** | | **İrlandiya** | **133** |
| **İtaliya** | **1204** | | **İsveçrə** | **250** |
| **Norveç** | **372** | | **Türkiyə** | **137** |
| **Portuqaliya** | **70** | | **Böyük Britaniya** | **3297** |
| **İsveç** | **347** | | | |

**Mənbə:** Gardner, 'Marşal planı', S 120. Məlumatlara əsasən müəllif tərəfindən tərtib edilib.

Avropanın yenidən qurulmasında ilk həlledici amil kimi ərzaq təhlükəsizliyinin təmin olunması idi . Avropanın yenidən qurulmasının uğuru müharibədən əvvəl yüksək iqtisadi inkişaf səviyyəsinə malik olmasına baxmayaraq, yenidənqurma prosesində kənd təsərrüfat müəssisələrinin əhəmiyyətini vurğulayır.

Müharibənin sonu yaxınlaşdıqca, Avropanın bərpası üçün kənd təsərrüfatının əhəmiyyəti getdikcə daha çox ön plana çıxırdı. Məsələn, kənd təsərrüfatı üzrə alman-amerikalı iqtisadçı Karl Brandt iddia edirdi ki, "Avropa kənd təsərrüfatının yenidən qurulması kənd əhalisi üçün məşğulluq , şəhər əhalisi üçün ərzaq deməkdir.” Kənd təsərrüfatı məhsullarının tədarükü də aşağı səviyyədə idi. Avropa ölkələri arasında ticarət durğunluq vəziyyətində idi . Marşal planı və plandan əvvəlki digər yardım formaları sayəsində Avropada kənd təsərrüfatının inkişafında tezliklə gözlənilən nəticələr əldə olunmağa başladı. Məsələn, Qərbi Almaniyanın işğal olunmuş rayonlarında xüsusi yardım proqramından istifadə edildi. Artıq 1949-cu ildə kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələrin məhsuldarlığı müharibədən əvvəlki səviyyədən də çox olmuşdur. Həmçinin 1951-52-ci illər üçün nəzərdə tutulan məhsuldarlığın hədəf göstəricilərini də üstələyib. Marşall planı qısa bir zamanda təkcə kənd təsərrüfatının deyil

, iqtisadiyyatın ümumi bərpasına da öz töhfəsini verdi.

Marşall proqramı tətbiqi nəticəsində Amerika bundan daha çox mənfəət əldə etdi. Belə ki , Marşal planının tətbiqi nəticəsində Avropada digər sahələrdə olduğu kimi kənd təsərrüfatında məhsul istehsalının artmasına səbəb oldu və bu da bölgəyə əhəmiyyətli investisiyaların axınını sürətləndirdi. Bu inkişaf ABŞ iqtisadiyyatı üçün də təkan oldu , Amerika məhsulları üçün yeni bazarların yaranmasına gətirib çıxardı. Amerikalı sərmayədarlar Avropa iqtisadiyyatında daha çox paya sahib oldular. (Chollet., 2005)

Məsələ burasındadır ki, 1955-ci ildə İngiltərədə ayaqqabı fabriklərinin 60,1% - i, uşaq qidalanması fabriklərinin 80% - i, rəngli və ağ-qara plyonka, nişasta, tikiş maşınları , kalkulyator, siqaret, kartof çipsi, ülgüc, alışdırma şamlarının istehsalı üzrə zavodların 65% - i, avtomobil, süd, kosmetika, dərman, traktor, neft məhsulları, elektrik cihazları, təkər istehsalı zavodlarının 45% - i, sabun, yuyucu vasitələr, çap maşınları istehsalı zavodlarının 45% - i amerikalı sərmayəçilərinin əlində cəmlənmişdi. Fransada isə həmin illərdə kompüter və inteqrasiya olunmuş məhsulların 80% - ni, kənd təsərrüfatı texnikasının 65% - ni, rabitə texnikasının 65% - ni, plyonka və fotobumaqaların, avtomobillərin və təyyarələrin 70% - ni təşkil edirdi.

Həm kənd təsərrüfatı, həm də Qərbi Avropada sənayenin stimullaşdırılması üzrə Marşall Planının strategiyası kənd təsərrüfatı istehsalının 11 %, sənaye istehsalının 40% və ümumi milli məhsulun isə 32% artmasına səbəb olmuşdur. Bərpa planı həm fövqəladə yardım tədbirləri (yəni fövqəladə hallar üçün ərzaq), həm də inkişaf sahəsində tədbirləri əhatə edirdi.

İkinci Dünya müharibəsindən sonra kənd təsərrüfatı müəssisələrinin yenidən dirçəldilməsində Tayvanda kənd yerlərinin Bərpası üzrə Çin - Amerika Birgə Komissiyası plan həyata keçirmişdir. Tayvan resurs baxımından aşağı gəlirli bir ölkə idi. Ölkə iqtisadiyyatında inflyasiya hökm sürürdü. Nəticədə, müharibədən sonrakı dövrdə Avropadan fərqli olaraq, Tayvandakı iqtisadi şərait, Afrika ölkələrinin bu gün aşağı gəlir səviyyəsinə malik olan şərtlərinə bənzəyirdi. Buna baxmayaraq, iki onillikdən az müddətdə Tayvan sürətlə sənayeləşən bir ölkəyə çevrildi.

Tayvanın kənd yerlərinin Bərpası üzrə Birgə Komissiya 1948-ci ildə ABŞ iqtisadi əməkdaşlıq İdarəsinin ( Marşal Planının idarə olunması üçün yaradılmış agentliyin )

nəzdində yaradılmışdır. O, kənd təsərrüfatı müəssisələrinin inkişaf etdirilməsi üçün nəzərdə tutulan layihələrin həyata keçirilməsində hökumət və özəl təşkilatlara maliyyə və texniki yardım göstərmişdir. Kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələrin həcmi 1950-ci illərdə ildə 6%, 1960-cı illərdə isə 5% artmışdır. Məsələn , çəltik istehsalı 1948-ci ildəki 1 058.000 tondan 1957-ci ildə 1 839.000 tona yüksəldi. Bu, qismən torpaq islahatı ilə, ilk növbədə məhsuldar mühitin yaxşılaşdırılması ilə əlaqədar idi.

Marşal Planı kimi, Amerikanın Tayvana yardımı təkcə kənd təsərrüfatı müəssisələrinin deyil, həm də sənaye müəssisələrinin da inkişafında mühüm rol oynayaraq bütövlükdə iqtisadiyyatın sürətli inkişafında iştirak etdi: kənd təsərrüfatı müəssisələri ilə istehsal müəssisələrinin bərpa və genişlənmə prosesində mühüm rol oynadı. 1953-cü ildən 1968-ci ilə qədər kənd təsərrüfatının və istehsalın inkişafını balanslaşdırılmış şəkildə ifadə edən dörd dörd illik iqtisadi plan işlənib hazırlanmışdır. Tayvanın kənd yerlərinin Bərpası üzrə Birgə Komissiya Planı müharibədən sonrakı dövrdə istər kənd təsərrüfatı müəssisələrinin inkişafında , istərsə də istehsal müəssisələri ilə qarşılıqlı əlaqələsində rol oynamışdır.

Marşal Planında olduğu kimi, Tayvanın kənd yerlərinin Bərpası üzrə Birgə Komissiya Planının uğurlu olmasının müəyyənedici amillərini üç geniş kateqoriyaya bölmək olar:

- Birincisi, proqramın uğuru üçün bəzi ilkin şərtlər artıq mövcud idi. Kənd təsərrüfatı sektoru müharibədən əvvəl müstəmləkəçi dövlətin iqtisadi strategiyasından bəhrələnirdi.
- İkincisi, ABŞ-ın yardımı inkişaf prosesini asanlaşdırmaq üçün nəzərdə tutulmuşdu. Bu, müxtəlif mexanizmlər vasitəsilə bir neçə il davam etdi və Tayvana əsas maliyyə dəstəkçisi ABŞ idi. Bu, müxtəlif mexanizmlər vasitəsilə bir neçə il davam etdi və Tayvana tədricən əsas maliyyəni ABŞ-dan götürməyə imkan verdi. 1950-ci ilin oktyabrında Çin Xalq Respublikası Koreya müharibəsinə daxil olduqdan sonra ABŞ Tayvanın təhlükəsizliyini təmin etmək üçün hərbi yardım göstərərək investisiya yatırımı üçün əlverişli mühit yaratdı.
- Üçüncüsü, hökumətin müəssisələrin inkişaf etdirilməsi üçün əhəmiyyətli potensialı var idi və bu, Tayvanın kənd yerlərinin Bərpası üzrə Birgə Komissiya Planının

xeyrinə idi. Nəhayət, onun işini rəhbər tutan prinsiplər onun səmərəliliyinə böyük töhfə verdi. 1949-cu ildə Tayvanın qarşılaşdığı vəziyyət , bu gün Afrika ölkələrinin qarşılaşdıqları ilə çox oxşardır.

Müharibədən sonrakı dövrdə Avropa ölkələrindən fərqli olaraq məsələn , Mozambikdə kiçik fermer təsərrüfatlarının dəstəklənməsi ərzaq istehsal edən müəssisələrin istehsal güclərini bərpa etməsinə səbəb oldu ki , bu da öz növbəsində yoxsulluğun azaldılmasına və yeni kənd təsərrüfatı müəssisələrinin yaradılmasına səbəb oldu. Bu nəticələrə əsaslanaraq kiçik və orta kənd təsərrüfatı subyektlərinə xüsusi dəstək olunmalıdır. Başqa sözlə, dövlət öz inkişaf strategiyasını işləyib hazırlamalıdır, kənd təsərrüfatının ona necə töhfə verə biləcəyini müəyyən etməlidir və öz kənd təsərrüfatı siyasətinin prinsiplərini müəyyən etməlidir. Münaqişədən sonra kənd təsərrüfatı müəssisələrinin bir o qədər tez bərpa oluna biləcəyi layihələr hazırlanmalıdır.

Dünya təcrübəsinə əsaslanaraq işğaldan azad edilmiş rayonlarda müəssisələrin , inzibari idarəetmə orqanlarının , enerji , nəqliyyat , kommunikasiya sistemlərinin bərpası və yaradılması istiqamətində zəruri işlər görülməlidir. Ilk olaraq azad olunmuş rayonlara insanlar mərhələli şəkildə köçürülməlidir.Təhsil, səhiyyə , telekommunikasiya obyektlərinin bərpası məskunlaşacak insanların adaptasiya prosesini sürətləndirəcək. Əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta biznes ilə məşğul olan sahibkarlar dəstəklənməlidir.

Zəngilan rayonunda bitkiçilik və heyvandarlıq sahələri böyük potensiala malikdir ki , onların davamlı inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsində və iqtisadiyyatın inkişafında mühüm rol oynayacaq . Bunun üçün geoloji quruluşu , torpaq – iqlim xüsusiyyətləri nəzərə alınaraq inkişaf etdirilməsi iqtisadi cəhətdən əlverişli olan bitkiçilik və heyvandarlıq sahələri müəyyənləşdirilməlidir. Məsələn , Marşal planının həyata keçirilməsi zaman İtaliyanın dağ rayonlarında motorlu traktorlardan istifadə olunması kənd təsərrüfatının inkişafını daha da sürətləndirdi. Bunun nəticəsində kənd təsərrüfatı sektoru öz istehsalını artırmışdır. Zəngilanın da relyefini nəzərə alaraq dünya təcrübəsində istifadə olunmu maşın və avadanlıqları tətbiq edərək, kənd təsərrüfatı istehsalının mexanikləşdirilməsilə kənd təsəsrrüfatı firmalarında artıma nail olmaq

mümkündür.

Kənd təsərrüfatı müəssisələri onları digər müəssisələrdən fərqləndirən müəyyən xüsusiyyətlərə malikdir. Bu xarakteristikalar kənd təsərrüfatı müəssisələrinin mühasibat uçotunun təşkilindəki fərqlilikləri izah edir ki, bu da öz növbəsində bütün mühasibat uçotu prosesi boyunca bir sıra çətinliklərə gətirib çıxarmışdır.

Kənd təsərrüfatı sektoru bütün cəmiyyətlər üçün əvəzolunmaz və strateji sektora çevrilmişdir. Fəaliyyət göstərən müəssisə və fermerlərdən ibarət olan belə mühüm sektorda kənd təsərrüfatı fəaliyyəti ilə bağlı qərarların qəbul edilməsi təcrübəsi mühasibat uçotu informasiya sistemindən əldə edilən məlumatların uçotunu tələb edir. Mühasibat uçotu informasiya sisteminin köməyi ilə müəssisələr və fermerlər kənd təsərrüfatı istehsalına çəkilən xərcləri daha dəqiq qiymətləndirə, məhsuldarlığın ölçülməsini asanlaşdıra və kənd təsərrüfatı istehsalı prosesində yaranan problemləri həll edə bilərlər.

### 1.2 İşğaldan azad olunmuş rayonların kənd təsərrüfatı müəssisələrinin innovasiyalı inkişafının prioritet istiqamətləri

Hal – hazırda işğaldan azad edilmiş rayonların kənd təsərrüfatı müəssisələrinin bərpası qarşıda duran vacib məsələlərdəndir. BMT-nin apardığı hesablamalarına əsasən işğal nəticəsində Azərbaycan Respublikasına dəymiş iqtisadi zərərin həcmi 53.5 milyard dolları həcmindədir. Ümumiyyətlə işğal zamanı bütün istiqamətləri nəzərə alsaq o zaman Azərbaycana dəymiş zərərin miqyası daha böyükdür. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə işğal nəticəsində ümumilikdə 265 milyard dollar ziyanın dəydiyi barədə məlumat verir. Hərbi Prokurorluğun apardığı kompleks məhkəmə ekspertizasının ilkin hesablamalarına əsasən bütün sahələr üzrə dəymiş maddi ziyanın ümumilikdə həcminin 819 milyard dollar təşkil etdiyini demək mümkündür .

Azad edilmiş ərazilərdə dağıntıların miqyasının böyük olması aparılan bərpa işlərinin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə həyata keçirilməsini zəruri edir. Bütün bunları nəzərə alaraq Qarabağ müharibəsi bitən kimi dərhal azad edilmiş ərazilərin "Böyük qayıdışı" proqramı əsasında bərpasına başlanıldı. Azad edilən rayonlarda bərpa və yenidənqurma prosesinin həyata keçirilməsi üçün 2021 – ci ilin dövlər büdcəsindən ilkin mərhələdə 2.2 milyard dollar vəsait ayrılması nəzərdə tutulmuşdu.(https://www.ikisahil.az/post/207714-boyuk-qayidish-proqrami-keyfiyyetce-yeni-bir-heyata-qayidish-olacaq , 2021) Bərpa prosesinin həyata keçirilməsinin birinci mərhələsində ayrılan vəsait infrastrukturun formalaşdırılması , kommunal xidmətlərin əlçatanlığının təmin edilməsinə , ikinci mərhələdə isə özəl və xarici investisiyaların cəlb edilməsinə yönəlmişdir. Bütün bunları nəzərə alsaq bərpa prosesi ilə bağlı əsasa məqsədlərə aşağıdakıları qeyd edə bilərik:

- Bərpa prosesini keyfiyyətli şəkildə həyata keçirtmək
- Yaradılan inkişaf modelinin müasir standartlara cavab verməsi
- Azad edilmiş rayonların tətbiq edilən texnologiyalar sayəsində yüksək inkişaf etmiş ərazilərə çevrilməsi

- İnkişaf etmiş şirkətlərin qabaqcıl texnologiyalarının bərpa prosesinə cəlb edilməsi

Yuxarıda qeyd edilənlərlə yanaşı 2020-ci ilin fevral ayında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi təsdiq edilmişdir. Aşağıda qeyd edilən məqsədlərə nail olmaq bu prioritetin uğurla həyata keçirilməsində mühüm rol oynayır.

- dayanıqlı və daimi məskunlaşma;
- iqtisadi proseslərə reinteqrasiya.

İşğaldan azad olunmuş ərazilərdə əhalinin dayanıqlı məskunlaşmasını təmin etmək üçün həmin əraziləri müasir və abad yaşayış mühitinə çevirmək , dayanıqlı və daimi məskunlaşmanı təmin etmək üçün müasir prinsiplərə əsaslanan yaşayış mühiti yaratmaq lazımdır. Həmin rayonlar iqtisadi fəaliyyətdə mühüm rol oynayan həlqələrindən birinə çevrilməli , ölkənin digər regionları kimi müəyyən inkişaf səviyyəsinə malik olmalıdır. (https:// www.president.az/az/articles/view/50474 , 2021)

İşğal olunana qədər bu ərazilərdə yeyinti , yüngül , tikinti materialları , başqa sənaye və kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərirdi. İlk növbədə kənd təsərrüfatı sahələrinin bərpa istiqamətləri müəyyənləşdirilməlidir. Azərbaycanın iqtisadi gücü işğaldan azad edilmiş rayonlarda irimiqyaslı yenidənqurma işlərinin və "Böyük qayıdışın" həyata keçirilməsi üçün geniş imkanlar açır. Son illərdə bir çox ölkələr diqqətlərini Ağıllı Şəhər və Ağıllı Kənd layihələrinə yönəltməkdədirlər. (Albino. ,2015). Şəhər və kənd yerlərində olan problemlərin həllində bu konsepsiyaları tanınmış ədəbiyyatlarda universal həll yolları kimi təqdim etmişlər . Siyasətçilər bu konsepsiyaları Finlandiya , Danimarka , Hindistan və Sinqapura müxtəlif dərəcəli uğurlarla tətbiq etməyə çalışmışlar. Ancaq fərqli qavrama, yanlış konsepsiyalaşdırma və tətbiqetmə qeyri-dəqiq olan nəticələrə gətirib çıxartmışdır. Belə ki, ədəbiyyatlarda daha çox Danimarkanın Orhus və Kopenhagen, Finlandiyanın Ağıllı Helsinki və Sinqapurun Ağıllı Millətinin uğurlarından çox bəhs edilir. Bəzi ölkələrdə isə uğursuzluqla nəticlənmişdir , məsələn İspaniya , Hindistan , Çinin şəhərləri böyük planlara sahib olsalar da istənilən nəticə əldə olunmamışdır.(https:// www.creative.az/az/post/483 , 2020)

Ağıllı Şəhər layihəsi bölgədə məskunlaşan insanların həyat tərzi və iş fəaliyyətinin inkişafına, informasiya və kommunikasiya sahəsində yeni texnologiyaların istifadəsinə və dayanıqlı inkişafın təmin olunmasına yönələn bir konsepsiyadır. Dünya əhalisinin yarıdan çox hissəsinin şəhərlərdə məskunlaşması ilə bağlı Birləşmiş Millətlər Təşkilatı Əhali Fondunun statistik məlumatlarında qeyd etmişdir. Bu rəqəmin artaraq 2050-ci ilə qədər 70%-ə çatması gözlənilir. Kütləvi urbanizasiyalaşma prosesi resursların böyük həcmdə istehlakına səbəb olmaqla mühit üçün mənfi nəticələrə gətirib çıxarır (Veselitskaya, 2019). Şəhər əhalisinin sayında baş verən sürətli artım məişət tullantılarının idarəsində müəyyən çətinlik yaradarq , resursların çatışmazlığı, havanın çirklənməsi, insan həyat və sağlamlığı ilə bağlı narahatlıqlar, nəqliyyat sıxlığı, zəifləyən infrastruktur kimi bir sıra texniki və infrastruktur əsaslı problemləri tətikləyir. Eyni zamanda səhiyyə sahəsində , sosial xidmətlərdən istifadədə müəyyən çətinliklər yaranır . Yaranan çətinliklərin qarşısını alınmasında dövlət ilə birgə özəl qurumlar , şəhər agentlikləri, qeyri-kommersiya təşkilatları və digərləri birgə əməkdaşlıq etməlidir. Şəhərlərdə meydana çıxan sosial , fiziki problemlərin həll edilməsində təşkilati və institusional yollardan da istifadə edilir. Belə olduğu halda, Ağıllı Şəhər ərazinin yaxşılaşdırılmasına xidmət edə bilər.

Azad edilmiş rayonlarımızın bərpa edilməsinin əsas istiqamətlərindən ən başlıcası şəhər və kəndlərin yenidən qurulmasıdır. Aparılan hesablamalara əsasən işğal nəticəsində çoxlu yaşayış binalarına ziyan dəydiyi müəyyən edilib. Bərpa zamanı kiçik kəndlərin salınmasının səmərəli olmadığı üçün daha böyük kəndlərin salınması nəzərdə tutulur. Bu resurslardan daha səmərəli istifadəyə və sərf olunacaq xərclərin optimallaşdırılmasına imkan verəcək.(https://www.creative.az/az/post/483 , 2020 ) Bütün bu proseslərin həyata keçirilməsində “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarından istifadə nəzərdə tutulub. Azərbaycan da ağıllı şəhər və ağıllı kənd konsepsiyasından istifadə edən ölkələr sırasındadır. Tətbiqi nəzərdə tutulan layihələr zamanı azad edilən bölgələrə əhalinin məskunlaşması düşünülməyə başlanmışdır. Prezident İlham Əliyevin 2021-ci ilin yanvar ayında olan çıxışında erməni işğalından azad edilmiş rayonlarda əhalinin məskunlaşması üçün yaşayış məntəqələri ağıllı şəhər/kənd konsepsiyası əsasında yenidən qurulması ilə bağlı məsələləri müzakirə etmişdir .(Caspian News, 2021). Bütün bunlardan əlavə,

prezidentin imzaladığı Ağıllı Şəhər və Ağıllı Kənd konsepsiyasına əsasən müxtəlif nazirlikləri təmsil edən işçi qrupu Qarabağda Ağıllı konsepsiyasının əhalini bölgəyə geri qayıtmağa cəlb etmək, davamlı inkişafı təmin etmək və regionu canlandırmaq üçün istifadəsi başa düşülür.

Mütəxəssislər əmindirlər ki , işğaldan azad edilən ərazilərdə “ağıllı kənd”, “ağıllı şəhər”, “ağıllı ev” strategiyalarının tətbiqi həmin bölgələrdə sosial innovasiyaların , kiçik sahibkarlığın inkişafına da şərait yaradacaq , eyni zamanda Qarabağ regionunun texnoloji innovasiya – startap mərkəzi kimi cəlbediciliyinidə artıracaq.

Müasir dövrdə texniki tərəqqi insan həyatının bütün sahələrində özünü fəal göstərir. Meqapolislərdə müşahidə olunan olunan temp şəhər sakinlərinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün xüsusi tələbləri diktə edir. Belə ki, dünya urbanizasiyası şəhərlərin inkişaf tempini artırmaqla yeni texnologiyaların inkişafına da əsaslı təkan verir. Buna görədir ki, dünyada “ağıllı kənd” layihəsi sürətlə populyarlıq qazanır, bir sıra ölkələrdə belə layihələr artıq reallığa çevrilib.

Bəs “ağıllı kənd” nə deməkdir, hansı komponentlərdən ibarətdir? Mütəxəssislərin fikri belədir ki, “ağıllı kənd” əhalinin həyat fəaliyyətinin idarəsi və yaşayış mühitinin idarə olunması üzrə avtomatlaşdırılmış bir sistemdir.

Mütəxəssislərin fikrincə insanların evdən çıxmadan uzaq məsafədən idarə edə biləcəyi geniş texniki imkanlara malik olması “ağıllı kənd”in əsas müsbət xüsusiyyətlərindən biridir. Belə ki, kənd sakini vahid mərkəzdən məlumat əldə etmək, informasiya sistemlərini idarə etmək, kommunikativ xidmətlər (onlayn danışıqlar aparmaq bacarığı) , iş və digər əməliyyatlar aparmaq həyata keçirmək imkanı qazanır. Beləliklə, “ağıllı kənd” sakinləri layihənin formalaşdırdığı avtomatlaşdırılmış mərkəzi sistem vasitəsilə xeyli vəsait və vaxt sərf etmədən cari məişət problemlərini həll edə bilərlər . Mütəxəssislərin fikrincə , müasir dünyada “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasının tətbiqi qloballaşma və Dördüncü Sənaye İnqilabının yaratdığı problemlərin bir çoxunun aradan qaldırılmasına müsbət təsir edəcək. Buna görə də “ağıllı şəhər" və “ağıllı kənd” konsepsiyasının işğaldan azad edilmiş bölgələrdə həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, həmin layihələrin reallaşdırılması azad

olunmuş ərazilərdə təhlükəsizlik, vaxt və rahatlıq, sağlamlıq, ətraf mühit, sosial əlaqələr , iş yerlərinin idarə edilməsi kimi müxtəlif göstəricilərə müsbət təsir edəcək.

Bundan başqa, mütəxəssislərin fikrincə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasına əsasən tətbiq ediləcək texnologiyalar vətəndaşların sağlamlığını və rifahını yaxşılaşdırmaq qabiliyyəti olan iqtisadi inkişaf üçün yeni yollar da təqdim edir.

Eyni zamanda, bulud texnologiyalarının bərpa olunan mənbələrdə tətbiqi regionun bərpası prosesini sürətləndirə və bu regionu yerli və xarici sərmayədarlar üçün maraqlı edə bilər. Analitiklər bütün bunları nəzərə alaraq “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilməsinin bu bölgədə innovativ və texnoloji investisiya axınının sürətləndirilməsində, habelə Qarabağda innovasiya mərkəzlərinin və texnoparkların yaradılmasında əsas rol oynaya biləcəyini düşünürlər. Ümumiyyətlə, “ağıllı kənd” , “ ağıllı şəhər “ konsepsiyası inkişaf etməkdə olan ölkələrdə texnoloji, maliyyə və təhsil metodologiyalarından istifadə edərək, kəndlərdə enerji əldə etmək üçün real maneələrlə mübarizə aparmaq məqsədi daşıyır. Müasir dövrdə elektrik enerjisi gündəlik həyatımızın bir hissəsinə çevrilmişdir və enerji olmadan yaşaya bilmərik .Təəssüf ki, bərpa olunmayan enerji resursları sürətlə tükənir. Dünyanın iri neft şirkətləri 2050-ci ilə qədər enerjinin üçdə biri günəş, külək və digər bərpaolunan resursların payına düşəcəyini və buna görə də, bərpa olunan resurslardan istifadənin ən optimal yanaşma olduğunu proqnozlaşdırırlar . Məlumdur ki , müasir dövrdə bütün sahələrdə sosial-iqtisadi inkişaf fasiləsiz və ucuz elektrik enerjisinin daha əlçatan olmasını tələb edir.

“Ağıllı kənd”in yaradılması çox vacib addımdır və Azərbaycan bu istiqamətdə fəal iş görür.Belə layihələr kənd təsərrüfatında qiymətlərin formalaşması prosesinə təsir edən rəqəmsal texnologiyalara keçidi sürətləndirir. Yaradılacaq “ ağıllı kəndlərdə “ innovasiyaların tətbiqi ilə alternativ enerji resurslarından istifadə edilməlidir. Kəndlərdə “ağıllı” kommunikasiyalardan istifadə etməyin vacibliyi bu prosesdə həm dövlətin, həm də özəl sektorun maraq göstərməsinin əhəmiyyətini artırır.

Azərbaycanda belə layihələrin reallaşdırılmasına, əlbəttə ki, maraq böyükdür. Ölkəmizdə bu mühüm prosesə artıq start verilmişdir. Azad edilmiş rayonlarda prezidentin göstərişi ilə layihələrin həyata keçirilməsinə başlanılmışdır . Bu tip pilot layihələrin həyata

keçirilməsi işğaldan azaad edilmiş rayonlara daha çox investisiya axınının yaranmasına səbəb olaraq bərpa prosesini daha da sürətləndirəcək.

İşğaldan azad edilmiş rayonlarda yaradılacaq "yaşıl enerji" zonası və "ağıllı" istehlak sistemlərinin tətbiq edilməsi orada məskunlaşacaq əhali üçün yeni həyat standartının formalaşmasına təkan verəcək. İşğaldan azad edilmiş ərazilərdə " ağıllı kənd " , " ağıllı şəhər " konsepsiyalarının tətbiqi nəticəsində orda məskunlaşan əhalinin qarşılaşdığı problemlərin həllində müsbət rol oynayacaq. Eyni zamanda kəndlərlə ətraf bölgələr arasında sosial – iqtisadi əlaqələrin möhkəmlənməsinə , əməkdaşlığın formalaşmasına , yeni iqtisadi imkanların yaradılmasına da öz töhfəsini verəcək . " Ağıllı kənd " layihəsi çərçivəsində həmin ərazilərdə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinə tətbiq olunacaq texnoloji və sosial innovasiyalar bölgələrə daha çox maraq olmasına səbəb olacaq.

"Ağıllı kənd" layihəsi ilə işğaldan azad edilmiş bölgələrə qayıdacaq insanların məşğulluğunun təmin edilməsində aqrar sahədə fəaliyyət göstərəcək müəssisələrin rolu böyük olacaq. Prezident İlham Əliyevin təşəbbüsü ilə həmin müəssisələrin istehsal güclərinin bərpa olunmasında Türkiyə , İsrail , Çin , İtaliya mütəxəssisləri ilə yaxından iştirak edəcəklər. Türkiyədə fəaliyyət göstərən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında bağlanan "Mədəni və Elmi Əməkdaşlıq" memorandumuna əsasən Qarabağda ən son "soft" və "hard" elmi araşdırmaların aparılması , yüksək texnoloji cihazların istehsalı üçün Yüksək Texnologiyalar Parkı yaradılacaq.

"Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri çərçivəsində elektrik enerjisinin verilməsini daha səmərəli etmək üçün yaşıl enerji zonasının yaradılması nəzərdə tutulmuşdur.Bunun nəticəsində enerji kəsintisi olmadan enerjisinin verilməsi daha səmərəli yolla olacaq. İşğaldan azad edilmiş rayonlarda butip layihələrin genişləndirilməsi kəndlərin digər şəhər və rayonlara inteqrasiya olunmasına kömək edəcək.

İşğaldan azad edilmiş rayonlarda icra edilən "Ağıllı kənd" və "Ağıllı şəhər" layihəsinin gələcək dövr üçün böyük potensiala malikdir. Belə ki , bu layihə texnoloji əsaslara söykəndiyi üçün investorların da marağını çəkərək müəyyən startapların bu

ərazilərə cəlb olunmağına və tətbiqinə fürsət yaradacaq. İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma bərpa işlərinin həyata keçirilməsində xarici ölkələr və şirkətlər də böyük maraq göstərirlər. Artıq bərpa prosesinə bir çox xarici ölkələr və şirkətlər cəkb edilmişdir. Bu sahədə həyata keçirilən layihələrə aşağıda qeyd edilənlər aiddir :

Bərpa prosesində sıx əməkdaşlıq aparılan Türkiyə şirkətləridir. Onların iştirak etdiyi layihələrə aiddir:

- Azərbaycan İnnovasiya Agentliyi Türkiyənin GOSB texnoparkı ilə azad edilmiş ərazilərdə ortaq texnoloji parkın yaradılması barədə anlaşma memorandumu imzalayıb.
- Türkiyənin Ziraat Bankı Şuşa şəhərində açılması nəzərdə tutula filial ilə bağlı artıq lazimi orqanlara müraciət edib.
- Türkiyədəki qabaqcıl iş adamlarını özündəbirləşdirən TÜMKİAD təşkilatı azad edilmiş torpaqlara 50 milyon dollar sərmayə yatırmağı planlaşdırdıqlarını açıqlayıb.

Britaniya dövləti də bərpa prosesində Azərbaycana dəstək verməkdə maraqlı olduğunu bəyan etmiş ölkələrdəndir. Bərpa prosesində maraqlı olan Britaniya şirkətləri daha çox texnologiya sahəsinə maraq göstərir. Əsas məqsəd "Ağıllı“ və "Yaşıl“ şəhərlərin yaradılması, bərpa olunan enerji mənbələrindən istifadə , ərazilərin minalardan təmizlənməsi və mədən sənayesi aiddir. Britaniya qeydiyyatlı “Anglo Asian Mining” şirkəti azad edilmiş rayonlarda həyata keçiriləcək layihələrdə fəal iştirak edir. Eyni zamanda Britaniya şirkətləri rayonlarda minaların təmizlənməsi, şəhərsalma və infrastrukturun inkişaf etdirilməsi layihələrinə cəlb edilib.

Macarıstan dövləti də işğaldan azad edilmiş ərazilərin bərpa edilməsində iştirak edən ölkələr arasındadır . Artıq bu istiqamətdə həyata keçirdiyi layihələrdən biri də budur ki , Macarıstanın Eksim Milli Bankı azad olunmuş torpaqlarda bərpa prosesində iştirak edəcək Macarıstan şirkətlərinə 100 milyon dollar məbləğində kredit xətti açmış , azad edilmiş ərazilərin minalardan təmizlənməsi üzrə əməliyyatların aparılmasına kömək etmək üçün 25 min avro vəsait ayırmağı təklif edib.

Yuxarıda qeyd edilən ölkələrlə yanaşı İsrail , Yaponiya , İran da yenidənqurma layihələrinə investisiya yatırmaqda maraqlıdırlar. Yenidənqurma işlərinin miqyası böyük olduğu üçün xarici şirkətlərin cəlb edilməsi əhəmiyyətlidir. Çünki yerli şirkətlərin

resursları hesabına bərpa prosesini səmərəli şəkildə və qısa zamanda həyata keçirmək çətin bir prosesdir. Həm də xarici şirkətlərin ölkəyə gəlməsi azad edilmiş rayonların yenidən qurulmasında onlara məxsus yeni texnologiyaların tətbiqinə da şərait yaradır. Bu da öz növbəsində yeni sahibkarlıq və rəqabət mühitininn formalaşmasına təkan verəcək.

"Ağıllı kənd" və "Ağıllı şəhər" layihəsini həyata keçirən zaman diqqət edilməsi vacib olan məqamlardan biri həm ehtiyatlara çıxış olmalıdır , həm də logistika baxımından digər rayon və şəhərlərə yaxın olmalıdır.İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərəcək Zəngilan , Füzuli və Laçın hava limanları bu baxımdan əhəmiyyətli rol oynayacaq.Çünki dünya təcrübəsi göstərir ki , post – konflikt bərpa dövründə hava limanlarının təsiri böyükdür.Nəqliyyat – logistika baxımından ərazilərə mallar qısa zamanda çatdırılacaq , gediş – gəliş , aparılan infrasutrukdur , quruculuq layihələri daha sürətlə gedəcək.

Logistika infrasutrukturu ilə yanaşı işğaldan azad edilmiş rayonlarda aqro – emal müəssisələrinin yaradılması da müsbət addımlardandır. Məsələn , taxılçılığın inkişaf etdiyi bölgələrdə un dəyirmanları , heyvandarlığın üstünlük təşkil etdiyi rayonlarda sənaye üsulu ilə yem istehsalı və dəri emalı müəssisələrinin yaradılması mühüm əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş rayonlarda əhalinin davamlı məskunlaşması üçün quruculuq , abadlıq işlərinin aparılması üçün "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır. Post – konflikt zamanı dağıdılmış rayonlarda kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin bərpası , kənd infrastrukturunun yenidən qurulması tələb olunur.

Silahlı münaqişələr zamanı kənd təsərrüfatı məhsullarının istehsalı həddən artıq azalır, bu da öz növbəsində aclığa , çoxlu sayda insanların başqa yerlərə miqrasiya etməsinə səbəb olur. Buna misal olaraq , Yaxın Şərqdə baş vermiş silahlı münaqişələrdən sonra Livan , Suriya , İraq və s. kimi ölkələrdən qonşu ölkələrə miqrant axını güclənmişdir. Münaqişələr nəticəsində kənd təsərrüfatına , kənd təsərrüfatı istehsal edən müəssisələrinin fəaliyyətinə ziyan dəyir , kənd təsərrüfatı sahəsində çalışan mütəxəssislərinin itirilməsinə səbəb olur .

Elmi – texniki tərəqqinin nailiyyətlərinin kənd təsərrüfatı məhsul istehsalında

tətbiqi istehsal proseslərinin intensivləşməsində , kənd təsərrüfatı müəssisələrinin istehsal gücünün artmasında , iqtisadi səmərəliliyin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Aqrar sahədə innovativ xarakterli elmi – texniki yeniliklərin tətbiq edilməsi kənd təsərrüfatı müəssisələrinin gəlirlərinin maksimallaşmasında , xərclərinin isə minimallaşdırılmasında mühüm rol oynayar. Xüsusilə də işğaldan azad edilmiş rayonların kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin bərpası prosesində elmi - texniki tərəqqi və qabaqcıl texnologiyaların rolu böyükdür.

Müasir dövrdə innovativ fəaliyyət digər sahələrdə olduğu kimi kənd təsərrüfatı istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin dayanıqlı inkişafını təmin edəcəkdir. İnnovativ inkişafın əsas daşıyıcısı innovativ aqrosənaye müəssisələridir.

Dünya ölkələrinin təcrübəsində göstərilir ki, innovativ müəssisələrə ümumi məhsul istehsalı hesabat dövrü ərzində 70 % - dən çoxu innovativ məhsul istehsalının payına düşən müəssisələr daxildir. Azərbaycanın da işğaldan azad edilmiş rayonlarda olan kənd təsərrüfatı müəssisələrinə bu meyarı tətbiq etməsinə bir sıra amillər təsir edir :

- Həmin müəssisələrin uzun müddət işğal altında olması ilə əlaqədar olaraq yenilikçi müəssisələrin yox dərəcəsində olması
- İşğaldan azad edilmiş rayonlarda yerləşən müəssisələrin maddi –texniki bazasının zəif olması
- Həmin ərazilərdə yerləşən kənd təsərrüfatı müəssisələrində ixtisaslı kadrların azlıq təşkil etməsi
- Kənd təsərrüfatı məhsullarının istehsalçıları arasında motivasiya və marağın zəif olması

Zəngilan rayonunun yüksək texnologi innovasiyalar mərkəzinə çevrilməsi iqtisadiyyatın inkişafı naminə olduqca əhəmiyyətlidir. Həmin ərazilərdə fəaliyyət göstərəcək müəssisələr kənd təsərrüfatı məhsul ixracının artmasına , yeni artım mənbələrinin inkişafına , iqtisadi cəhətdən inkişafda yarana biləcək maneələrin aradan qaldırılmasına kömək edəcəkdir. Zəngilan rayonu meyvəçilik , üzümçülük , quçşuluq , heyvandarlıq və s. kənd təsərrüfatı müəssisələrinin inkişafı üçün olduqca böyük potensiala malikdir. Eyni zamanda istehsal ediləcək məhsulların “Made in Azerbaijan “ brendi ilə xarici bazarlara çıxarılması həm ölkənin tanınmasında , həm də iqtisadiyyatın

inkişafında böyük rol oynayır.

Qeyd olunanları nəzərə alaraq , Zəngilan rayonunda iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyini artırmasında aşağıda qeyd olunmuş təklifləri həyata keçirmək müsbət rol oynayacaq :

- Yeni yaradılan müəssisələrin dayanıqlı inkişafını təmin etmək üçün vergi güzəştləri , işçilər üçün sosial sığorta , digər güzəştlər tətbiq edilməli ;
- Zəngilan və digər rayonlarda özəl təşəbbüsləri stimullaşdırmaq , investisiya cəlbediciliyini artırmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olan sahibkarlara idxal zamanı gömrük və vergi güzəştlərinin müəyyənləşdirilməsi ;
- İşğaldan azad edilmiş rayonlarda kiçik və orta sahibkalıq subyektlərinə kommunal xidmətlər ( elektrik enerjisi , təbii qaz, su istehlakı ) üzrə güzəştlər müəyyənləşdirilməlidir;
- İxtisaslı kadrların işğaldan azad edilmiş rayonlara cəlb edilməsi üçün onları orda yaşayış yerləri ilə təmin etmək ;
- İşğaldan azad edilmiş rayonlarda yaşayış massivlərinin inşasına dövlət dəstəyinin gücləndirilməsi.

### 1.3. Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin xüsusiyyətlərini əks etdirən mühasibat uçotunun təşkili ilə bağlı qanunvericilik.

Kənd təsərrüfatı müəssisələrinin uçot siyasəti " Mühasibat uçotu haqqında " AR Qanunu , AR Maliyyə Nazirliyi tərəfindən 2017 – ci il 30 yanvar tarixli Q – 01 tarixli qərarı təsdiq olunmuş " Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları " , "Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları" , Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2009-cu il 13 yanvar tarixli İ-04 nömrəli əmri ilə təsdiq olunmuş "Kənd təsərrüfatı üzrə" Kommersiya Təşkilatları üçün 28 №-li Milli Mühasibat Uçotu Standartı və digər normativ-hüquqi aktlar vasitəsi ilə tənzimlənir.

Kənd təsərrüfatı ilə bağlı uçotun tətbiqi , maliyyə hesabatlarının təqdim edilməsi "Kənd təsərrüfatı" adlı 41 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsaslanır. Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotunun təşkili zamanı MHBS- a əsaslanan prinsiplərə , maliyyə hesabatlarının elementlərinin qiymətləndirmə metodlarına üstünlük verilir.

Dünya ölkələrinin bir çoxunun kiçik və orta sahibkarlıq subyektlərində aparılan uçot qaydaları İFRS for Smes ( International Financial Reporting Standart for Small- and Medium-Sized Entities) - ə aparılır. İFRS for Smes- də kiçik və orta sahibkarlıq subyektləridə uçot siyasətinin seçilməsi ,maliyyə hesabatlarının formaları ilə bağlı bu sahibkarlıq subyektlərinə təkliflər öz əksini tapmışdır.

Kiçik və orta sahibkarlıq subyektləri kənd təsərrüfatının , sənayenin , ticarətin əsas hərəkətverici qüvvəsindən biridir. Bu sahibkarlıq subyektləri regionlararası inkişafın təmin edilməsində , fərdi sahibkarlığın inkişafında müstəsna rol oynayır.

Kiçik və orta sahibkarlıq subyektləri yeni iş imkanları yaradaraq məşğulluğu təmin edirlər və bunun nəticəsində region əhalisinin şəhərlərə köç etməsinin qarşısı alınır , regionun inkişafı təmin olunur. Bunları nəzərə alaraq , işğaldan azad edilmiş rayonlarda Kiçik və orta sahibkarlıq subyektlərini inkişaf etdirilməlidir.

Dövlət hər daim kənd təsərrüfatı müəssisələrində düzgün uçot hesabatlılıq sisteminin qurulmasını nəzarətdə saxlayır. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisələrdə mühasibat uçotunun və hesabatlılığın səviyyəsinin qənaətbəxş olmadığı ilə bağlı Dövlət Vergi Xidməti açıqlamalarında məlumat verir. Kənd təsərrüfatı məhsul istehsalçıları tərəfindən dövlət orqanlarına və bələdiyyələrə təqdim edilən hesabatlarda yaranan uyğunsuzluq , düzgün uçot siyasətinin aparılmaması , hesabat təqdim edilməmə halları vergidən yayınmağa şərait yaratmışdır.Bu gün dövlət orqanları səviyyəsində kənd təsərrüfatında uçot və hesabatlılığın dürüstləşdirilməsi və şəffaflaşdırılması istiqamətində işlər yerinə yetirilir.

İlk dəfə kənd təsərrüfatı ilə bağlı olan böyük bir informasiya bazası Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi ( EKTİS ) yaradılmışdır. EKTİS vasitəsilə sahələr , bölgələr , şəxslər üzrə kənd təsərrüfatı üzrə istehsal olunan məhsulları , istehsal ilə bağlı informasiyaları , subsidiyaların və digər maliyyə yardımlarının əldə edilməsi barədə məlumatları özündə birləşdirən informasiya bazasıdır. Bu sahədə lazım olan mənbələrin əldə edilməsində mühüm rol oynayır. EKTİS Avropa Birliyinin Kənd Təsərrüfatı Uçotu Məlumat Şəbəkəsi (The Farm Accountancy Data Network - FADN) əsası hesab olunur.

Uçot siyasətinin seçilməsi kənd təsərrüfatının xüsusiyyətlərindən, idarəetmə xüsusiyyətlərindən, müəssisənin təlimatlarında və daxili qaydalarındakı normalardan və kommersiya fəaliyyətinin xüsusiyyətlərindən, müəssisənin yaxın və uzun müddətli strateji planlarından birbaşa asılıdır. Tətbiq edilən uçot siyasətinə bir sıra amillər də təsir göstərir: vergi qanunvericiliyi , mövcud subsidiyalar , müəssisənin öhdəlikləri və onların ödənilmə müddətləri , icarə məsələləri , işçi heyətinin ixtisas səviyyəsi və qiymətləndirmə meyarları. Müəssisələrdə uçot siyasətinin seçilməsi və həyata keçirilməsində beynəlxalq uçotun mövcud prinsipləri və tələbləri də nəzərə alınmalıdır . Uçot siyasətini tənzimləyən qanunvericilik aktlarına , standartlara əməl olunması vacibdir.

Kənd təsərrüfatı müəssisələrində uçot siyasətinin qurulması və tətbiqi problemləri araşdırılarkən əsasən, kənd təsərrüfatında uçot siyasətinin təşkili və ümumiyyətlə müasir BMHS-nı dəstəkləyən uçot işinin (sisteminin) tam qurulmaması, bu sahədə uçot siyasətinin təşkilində "addım-addım keçid" prinsiplərini labüd edir. Ümumiyyətlə, kənd təsərrüfatında uçot siyasətinin təşkilində əsas məsələ rəhbərliyin mövcud qanunvericiliyə

əsaslandırılmış elə uçot siyasətinin hazırlanması başa düşülməlidir ki, bu zaman gələcək faydanın itirilməməsi ilə yanaşı, həm də düzgün qərarların əldə olunmasında şəffaf və dürüst informasiyaya nail olunsun.

Kənd təsərrüfatı rayonlarında fəaliyyət göstərən sahibkarlar da vəsait axtarmaqda daim özləri də təşəbbüskarlıq göstərməlidir. İstifadə olunacaq avadanlıqların lizinqi , kommersiya məqsədli kreditlər üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması kimi maliyyələşdirilmə üsullarından istifadə olunmalıdır. Sahibkarlıq subyektlərinin fəaliyyəti üçün kənd təsərrüfatı kredit kooperasiyasının yaradılaraq aşağı faizlə kredit təklif etməsi sahənin inkişafında mühüm rol oynayar. Kredit kooperativlərinin fəaliyyəti qeyri-kommersiya xarakteri daşıyır, onlar alınan borclar ilə bağlı qaytarılmama riskini azaldırlar.

Azərbaycanda kiçik torpaq sahələrinin 80%-dən çoxu 5 hektardan az olan təsərrüfatlardır və bu subyektlərdə sadələşdirilmiş uçotun tətbiqi daha məqsədəuyğundur . Mühasibat uçotu haqqında qanuna əsasən kiçik sahibkarlıq subyektləri maliyə hesabatlarını sadələşmiş uçotun qaydalarına əsasən tərtib etməlidir.

İşğaldan azad olunmuş rayonların zəngin iqtisadi potensialı biznes, xüsusilə də Kiçik və orta sahibkarlıq subyektləri üçün yeni imkanlar açır və sahibkarlar bu ərazilərdə biznesin qurulmasında aktiv iştirak etməlidirlər. Azad olunmuş rayonlarda birgə layihələr həyata keçirilərək həssas qrupdan olan sahibkarlara dəstək nəzərdə tutulur.

Ümumi inkişaf strategiyası çərçivəsində davamlı inkişaf məqsədləri və 4-cü sənaye inqilabı prinsiplərinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərimiz yerli xüsusiyyətlər, resurslar və perspektivlər nəzərə alınmaqla ölkə iqtisadiyyatına inteqrasiya olunacaq. İşğaldan azad olunmuş rayonların yenidən çiçəklənməsi və inkişafına Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) də öz töhfəsini vermək niyyətindədir.

Agentlik işğaldan azad olunmuş torpaqlarda biznesin qurulması üçün Azərbaycan dövlətinin müəyyənləşdirəcəyi strategiyaya uyğun olaraq, orta və uzunmüddətli hədəflərində dəyişikliklər edəcək. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin təşkili, yerli və xarici investisiyaların cəlb olunmasına dəstək, KOB sektorunun formalaşdırılması Agentliyin strateji hədəflərinin prioritetlərindən olacaq.

Həmin bölgələrdə mikro və kiçik sahibkarlığın yaradılması və inkişafı, sosial sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, biznesin dövlət xidmətlərinə, təlimlərə və məsləhət xidmətlərinə, güzəştli maliyyə resurslarına çıxışını təmin etmək üçün KOB evinin, KOB inkişaf mərkəzlərinin, "KOB Dostu" şəbəkəsinin fəaliyyətinin təmin edilməsi də KOBİA-nın gələcək planları sırasındadır.

İşğaldan azad edilmiş rayonlarda sahibkarlıq fəaliyyətinin təşkil edilməsi , idarə və inkişafı üçün inkişaf etmiş dünya ölkələrinin təcrübəsinə əsaslanaraq kompleks xarakterli tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməli , eyni zamanda da konseptual yanaşmaya üstünlük verilməsi daha məqsədə uyğun sayılır.

Tikinti-quraşdırma və abadlaşdırma işlərinin işğaldan azad edilmiş bölgələrdə fasiləsiz həyata keçirilməsi lazım olan materiallar üçün daş karxanaları, qum , çınqıl, əhəngdaşı , sement və s. istehsal edən müəssisələrin işini bərpa etmək məqsədilə rayonları təmsil edən mövcud 35-ə yaxın tikinti təşkilatları ərazilərə köçürülməlidir.Eyni zamanda mövcud olan və yeni yaradılacaq tikinti təyinatlı sahibkarlıq subyektləri, fərdi qaydada yaradılacaq mikro və kiçik müəssisələrin regionda mövcud olan və dağıntıya məruz qalan çox saylı yaşayış məntəqəsinin yenidən bərpası işində fəal iştirak etməlidir.

Nəticə etibarilə kənd təsərrüfatında uçot informasiya sisteminin qurulması ilə bağlı digər bir addım isə vergi orqanları tərəfindən şəffaflığın təmini məqsədi ilə kənd təsərrüfatı istehsalçılarının vergi uçotunun dəqiqləşdirilməsinin aparılmasıdır. Mikroiqtisadi səviyyədə resurslardan səmərəli istifadə və istehsal göstəriciliyinin artırılmasına müəssisələrdə mühasibat uçotunun düzgün təşkil olunması da təsir göstərcək.

Bütün bu işlərin nəticəsində şəffaf uçot sisteminin qurulması istehsal olunan kənd təsərrüfatı məhsullarının real həcmi barədə düzgün məlumatların əldə edilməsinə, mövcud kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə olunmasının səmərəliliyinin artırılmasına, dövlət tərəfindən ayrılan subsidiyaların, yardımların, kənd təsərrüfatı məhsullarının istehsalçılarına verilən kreditlərin məhsul istehsalçılarının fəaliyyətinin genişləndirilməsinə səmərəli yönəldilməsi hesabına istehsalın həcminin daha böyük templərlə artırılmasına və nəticə etibarilə bu sahədə çalışanların rifahının yüksəldilməsinə nail olunmasına xidmət edəcək.

Qeyd olunanları nəzərə alaraq Zəngilan rayonunda mikro və kiçik təsərrüfat subyektlərinin təşkil olunması daha məqsədəuyğundur.AR Prezidentinin 2021 – ci il 1 dekabr 1482 nömrəli Fərmanına əsasən təsdiq edilən "Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası" bu sahədə fəaliyyət göstərəcək sahibkarları daha da stimullaşdıracaq. Bu qayda mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulları ölkə ərazisində fəaliyyət göstərən ticarət şəbəkələrində satışının genişləndirilməsinə, o cümlədən istehsal edilmiş məhsulların satışı ilə bağlı ticarət fəaliyyətinin təşkilinə çəkilən xərclərin ödənilməsinə şərait yaradacaq. Eyni zamanda sahibkarlara istehsal etdikləri məhsulların satış dairəsini genişləndirmələri üçün Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən icarəyə götürülmüş ticarət obyektinin müəyyən sahəsi verilərək dəstək olunacaq. (https://www.e-qanun.az/framework/48584 ,2021 )

## II FƏSİL. ZƏNGİLAN RAYONUNUN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

### 2.1. İşğaldan əvvəl Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun aparılması üzrə  mövcüd vəziyyətinin təhlili

Mərkəzi Zəngilan şəhəri olmaqla  rayon 1 şəhər, 1 şəhər tipli qəsəbə  , 83 kənd və qəsəbədən ibarət olmaqla 1930 – cu ildə 30 avqust tarixində təşkil edilib. 1931 – ci il 24 noyabrda Qubadlı rayonu 18 kənd ilə birlikdə Zəngilanın ərazisinə daxil edilsə də 1933 – cü ilin 14 mart tarixində yenidən bərpa edilmişdir.  Bir müddət sonra yenidən 1963 – cü ilin 4 yanvar tarixində Qubadlı rayonu yenə ləğv edilmiş , ərazisi isə Zəngilana verilmi , daha sonra yenidən bərpa olunmuşdur. Yerləşdiyi coğrafi mövqe ilə əlaqədar olaraq Zəngilan rayonu həmişə ticarətdə əsas məntəqələrdən olmuşdur. Aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar arxeoloji nümunələr Zəngilan rayonunun qədim tarixə malik olduğunu göstərir. 60-cı illərdə aparılan təsərrüfat işləri zamanı Zəngilan rayonun ərazisində xeyli küp qəbirlər və e. ə. IV -II əsrlərə aid edilən sikkələrin aşkar edilməsi Zəngilan ərazisinin qədim zamanlardan beynəlxalq ticarətdə böyük rol oynadığını sübut edir. (https://az.wikipedia.org/wiki/Zəngilan_rayonu , 2021 )

Azərbaycan Respublikasının cənub-qərbində yerləşən Zəngilan rayonunun ərazisi 730 kv. Km – dir. Rayon şimal tərəfdən Qubadlı rayonu , Şərqdən Cəbrayıl rayonu, cənub hissədən isə  Araz çayı boyunca  İran , qərb tərəfdən Mehri və Qafan rayonları ilə həmsərhəddir. Rayonun ərazisində aşağıdakı faydalı qazıntılar mövcuddur : Tikinti üçün daşlar, zəngin qızıl yatağı, qara mərmər yatağı, əhəng xammalı, əhəng daşı.

Rayon respublikanın dağətəyi ərazisində yerləşməklə iqtisadi cəhətcə əsasən kənd təsərrüfatı istiqamətli olmuş, 29 kolxoz-sovxozu, 1 arıçılıq təsərrüfatını, 4 kooperativi və 3 kəndli-fermer təsərrüfatını əhatə etmişdir. (https://az.wikipedia.org/wiki/Zəngilan_rayonu , 2021 )

İşğala qədər olan dövrdə rayonun iqtisadiyyatı

Rayon respublikanın dağətəyi ərazisində yerləşməklə iqtisadi cəhətdən əsasən kənd təsərrüfatı istiqamətli olmuş, 29 kolxoz-sovxozu, 1 arıçılıq təsərrüfatını, 4 kooperativi və 3 kəndli-fermer təsərrüfatını əhatə etmişdir. Sovet dövründə üzümçülük , tütünçülük , heyvandarlıq sahələri üstünlük təşkil edirdi. Eyni zamanda rayon ərazisində üzüm emalı zavodu fəaliyyət göstərirdi. Əkin üçün yararlı olan 35548 ha. torpağın 7204 ha illik, 2667 ha çoxillik bitkilər altına istifadə edilmiş, 207 ha sahəni biçənəklər və 22873 ha sahəni isə otlaqlar təşkil etmişdir. Əkin altında olan 7204 ha sahədə 4000 ha taxıl, 307 ha tütün, 41 ha şəkər çuğunduru, 56 ha kartof, 33 ha tərəvəz, 10 ha bostan bitkiləri becərilmişdir. 41 ha meyvə və giləmeyvə bağlarından, 2047 ha isə üzümlüklərdən ibarət olmuşdur.

İl ərzində dənli bitkilər istehsalı orta hesabla 3180 ton, tütün istehsalı 1700 ton, barama istehsalı 80 ton, bostan məhsulları 30 ton, kartof istehsalı 20 ton, üzüm istehsalı 18000 ton təşkil etmişdir. Rayonun ictimai təsərrüfatlarında iribuynuzlu mal-qara 9340 baş, qoyun-keçi 12000 baş, o cümlədən, inək və camışlar 1300 baş, donuzlar 30 baş olmaqla 310 ton ət, 1700 ton süd, 11,5 ton yun istehsal edilmişdir. Fərdi təsərrüfatlarda mal-qara (iribuynuzlu) 43000 baş, qoyun-keçi (davarlar) 92000 baş, arı ailəsi 1400 yeşik, meyvə ağacları 287000 ədəd təşkil etmişdir. Rayonda 12000 baş quş yetişdirmək gücünə malik olan 1 quşçuluq kompleksi fəaliyyət göstərmişdir. (https://az.wikipedia.org/wiki/Zəngilan_rayonu , 2021 )

İşğal zamanı rayon iqtisadiyyatına dəymiş ziyan

Erməni silahlı birləşmələri tərəfindən Zəngilanın, eləcə də respublikanın digər bölgələrinin işğalı zamanı beynəlxalq konvensiyalara, hüquq normalarına etinasızlıq göstərilərək əhaliyə, dövlətə, özəl müəssisələrə, təşkilatlara aid bütün mülkiyyət və digər sərvətlərə ziyan vurulmuşdur . Bu işğal nəticəsində, təxmini hesablamalara görə, rayona 3,4 milyard ABŞ dolları ziyan dəymişdir. Yardımçı təsərrüfat sahələri nəzərə alınmadan, əhaliyə məxsus 11.000 yaşayış evi, 150 şəxsi maşın və minik avtomobilləri, 43.000 qaramal, 92.000 qoyun-keçi, 265.000 ev quşları, 1600 arı ailəsi işğalçıların əlinə keçmişdir. Başqa ev heyvanlarını, məişət avadanlıqlarını, ərzaq ehtiyatlarını, meyvə ağaclarını da əlavə etsək, bunu yenə əhaliyə vurulmuş ziyanın tam siyahısı adlandırmaq olmaz . Rayonun təsərrüfatları da bütünlüklə maddi bazalarından məhrum olmuşlar.

Çünki işğalçl birləşmələri qəfil hücumla strateji cəhətdən əhəmiyyətli mövqeləri ələ keçirmiş, sənaye və kənd təsərrüfatı müəssisələrinin, məhsul ehtiyatlarının ərazidən çıxarılmasına imkan verməmişlər. Nəticədə 250 ədəd yük avtomaşını, 375 ədəd traktor, 75 ədəd kombayn, 130 ədəd otbiçən, 70 ədəd taxılsəpən və təmizləyən, eləcə də kirlər, kotanlar, ot toplayan, ot bağlayan və s. maşın və aqreqatlar, təsərrüfatlarda olan 9342 baş qaramal, 1200 baş qoyun-keçi işğal zonasında qalmışdır. Anbarlarda toplanmış 4000 ton taxıl, 2700 ton tütün, 12 ton barama, 165 ton noxud, 6000 ton quru ot, 2500 ton senaj, 3200 ton silos, 478.300 dekalitr şərab məhsulları, 120.000 şərti banka konserv məhsulları, 60 ton benzin, 160 ton salyarka düşmən əlinə keçmişdir. 142 ticarət, 49 iaşə obyektləri, onlarda olan 690 ton ərzaq və sənaye məhsulları, 2 şərab zavodu, konserv, çörək, kərpic, çınqıl, toxuculuq sexi, onların bütün avadanlıqları işğal nəticəsində talan edilmişdir.

İşğal nəticəsində həmin ərazilərdə qalan başqa mühüm müəssisələr, obyektlər, qurğu və şəbəkələr də az deyildir. Məsələn; 3200 hektar sahəni əhatə edən "Ağ oyuq" hidrokompleksi, Azərenerjinin rayon şəbəkəsinin 80 transformatoru və 2900 km. elektrik xətləri, digər avadanlıqları, rayonun bütün rabitə sistemi, nəinki Azərbaycanda, eləcə də MBD məkanında ən böyük dəmiryol qovşaqlarından biri olan Mincivanın bütün dəmiryol idarələri, rayon ərazisindəki 8 vağzal, 140 kilometr dəmiryol xətti, rayonun tikinti təşkilatlarının binaları, inventar və materialları, şəbəkəsi Zəngilan şəhəri ilə yanaşı onlarla qəsəbə və kəndi əhatə edən müxtəlif diametrli qaz boruları və s. (https://www.azertag.az/xeber/Isgaldan_edilmis_rayonlar , 2020)

Zəngilan rayonunun iqtisadiyyatı əsasən kənd təsərrüfatı istiqamətli olub. Rayon faydalı qazıntılarla zəngindir : tikinti daşı, qızıl, qara mərmər, əhəng xammalı və s. Bərpa prosesi nəticəsində Yaşıl enerji potensialı, yaranmış logistika imkanları Azərbaycanın iqtisadiyyatına, o cümlədən ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərəcək.

Rayonda məskunlaşan əhalinin əsas məşğuliyyətini əsasən kənd təsərrüfatı sahələri təşkil edirdi. Rayon ərazisindən axan çayların bol sulu olması kənd təsərrüfatı ilə məşğul olan əhalinin həm bir illik, həm də çoxillik bitkiləri əkməyinə şərait yaradırdı. Əkinçilik , tərəvəzçilik, meyvəçilik , üzüm və tütünçülük daha geniş yayılmış sahələrdir. İqlim şəraitinə əsasən – yayı isti , qışı isə mülayim geniş otlaqlara sahib idi , bu da öz

növbəsində iribuynuzlu və xırdabuynuzlu heyvandarlıq sahələrinin inkişafına şərait yaradırdı. Lakin işğaldan sonra rayon sakinlərinin çox hissəsinin şəhərlərdə məskunlaşması Zəngilanın heyvandarlıq sahəsində kəskin azalmalara səbəb olmuşdur.

**Şəkil 1 İribuynuzlu və xırdabuynuzlu heyvandarlıq sahəsində heyvanların sayındakı dəyişim**




**Mənbə: Dövlət Statistika Komitəsi**

Şəkil 1 – dən göründüyü kimi Qoyun və keçilərin sayı 1986 – cı ildə 350 000 başdan çox olmuşdur , 1990 – cı ildə 300 000 - ə qədər , 2010 – cu ildə daha da azalaraq 5 000 – dən aşağı düşmüşdür. Lakin 2018 – ci ildə artaraq 5 000 - ə yaxınlaşmışdır.İribuynuzlu mal – qaranın sayı 1986 – cı ildə 200 000 - ə qədər olmuş , 1990 – cı ildə 150 000 - ə qədər azalaraq 2010 – cu ildə 5 000 – dən aşağı olmuşdur . Lakin Qoyun və keçilərdən fərqli olaraq İribuynuzlu mal – qaranın sayında 2018 – ci ildə o qədər də nəzərə çarpacaq dərəcədə fərq olmamışdır.

**Cədvəl 2 Bitkiçilik məhsulları üzrə illər arzində dəyişim**

| | 1980 - ci il | | 1985 - ci il | | 1988 - ci il | |
|---|---|---|---|---|---|---|
| | ha | ton | ha | ton | ha | ton |
| Buğda | 1526 | 1857 | 1488 | 3111 | 1583 | 3793 |
| Arpa | 214 | 329 | 225 | 600 | 346 | 829 |
| Dənli və paxlalılar | 1813 | 2186 | 1747 | 3722 | 1929 | 4622 |
| Tütün | 381 | 1232 | 369 | 1313 | 359 | 1272 |
| Üzüm | 4573 | 15429 | 3841 | 26165 | 2391 | 16322 |

**Mənbə : azertag.az**

Cədvəl nəzər salsaq görərik ki , bitkiçilik üzrə taxıl istehsalında 1980-ci ildə 1526 hektar sahədə payızlıq və yazlıq buğda əkilmiş və 1857 ton məhsul əldə edilmişdir. 1985-ci ildə sahə 38  hektar azalmış , yığılmış məhsul isə 1254  ton artmışdır. 1988-ci ildə isə həm əkin sahəsi , həm də məhsul artmışdır.  Payızlıq və yazlıq arpanın 1980-ci ildə 214 hektar ərazidən 329 ton məhsul yığımı olmuş , 1985-ci ildə sahəsi 11 hektar  , məhsul yığımı isə 271 ton  artmış , 1988-ci ildə isə 346 hektardan isə 829 ton məhsul yığılmışdır. Dənli və dənli paxlalılar bitkilərdən  1980-ci ildə 1813 hektar sahədə əkilmiş və 2186 ton məhsul toplanışı olmuşdur. 1985-ci ildə əkin sahəsi 66 hektar azalmış , məhsul isə 1536 ton artmışdır. 1988-ci ildə isə sahəsi artaraq  1929 hektar  , məhsul yığımı isə 4622 ton olmuşdur. Tütün  1980-ci ildə 381 hektar sahədən 1232 ton, 1985-ci ildə əkin sahəsi azalaraq 369 hektar  , məhsul yığımı isə əksinə artaraq 1313 ton olmuşdur. 1988-ci ildə isə həm əkin sahəsi , həm də məhsulun həcmi azalaraq 359 hektar sahədən 1272 ton məhsul toplanmışdır. Zəngilan rayonunda üzüm istehsalı üstünlük təşkil etmişdir. 1980-ci ildə 4573 hektar sahədən 15429 ton, 1985-ci ildə əkin sahəsi azalmış - 3841 hektar sahədən 26165 ton, 1988-ci ildə isə həm əkin sahəsi azalmış həm də əhsulun həcmində xeyli azalma olmuşdur - 2391 hektar sahədən 16322 ton məhsul istehsal edilmişdir.

(https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_rayonlar , 2021)

Yuxarıda qeyd edilən bitkiçilik məhsullarının illər üzrə məhsuldarlığı aşağıdakı cədvəldə əks olunmuşdur. ( ton-la)

**Cədvəl 3 Bitkiçilik məhsullarının illər üzrə məhsuldarlığı**

| | 1980 – ci il | 1985 – ci il | 1988 – ci il |
|---|---|---|---|
| **Buğda** | **1.21** | **2.09** | **2.39** |
| **Arpa** | **1.53** | **2.66** | **2.39** |
| **Dənli və paxlalılar** | **1.20** | **2.13** | **2.39** |
| **Tütün** | **3.23** | **3.55** | **3.54** |
| **Üzüm** | **3.37** | **6.81** | **6.82** |

**Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Cədvəldən göründüyü kimi buğda , dənli və paxlalılar və üzümün qeyd olunan dövrlər ərzində məhsuldarlığı artımla müşahidə olunmuş ; arpa və tütünün məhsuldarlığı 1980 – ci ildən sonrakı beş il arzində artmış , 1985 – ci ildən sonra isə azalma olmuşdur.

Zəngilanın malik olduğu əmək , təbii iqlim amilləri ilə indiki vaxtda bu məhsuldarlıqdan dəfələrlə çox məhsul istehsal etmək mümkündür. Müasir dövrdə kənd təsərrüfatı məhsul istehsalının bütün sahələrində yeni texnika və texnalogiyaların tətbiq edilməsi ilə ciddi inkişaf əldə olunur, heyvandarlıqda təsərrüfatında yeni cinslər, bitkiçilik sahəsində isə daha keyfiyyətli və məhsuldar toxumların tətbiq edərək işğal olunmazdan əvvəl mövcud olan istehsal həcmində ciddi artım əldə etmək mümkündür.

İşğaldan azad olunan digər rayonlar kimi Zəngilan rayonun da ölkənin kənd təsərrüfatının inkişafında əhəmiyyətli rol oynayacağını demək mümkündür. İşğal edilməsəydi Zəngilan rayonu da ölkənin digər azad bölgələri kimi inkişaf etmiş olardı. Elmin inkişaf sayəsində intensiv istehsal texnologiyaları, innovativ becərmə üsulları və digər amillərin tətbiqi nəticəsində rayonun potensial imkanlardan daha geniş miqyasda istifadə edərək iqtsadiyyatın inkişafına müsbət təsir göstərəcək.

Kənd təsərrüfatı üzrə göstəricilərinə əsasən Zəngilan rayonuun işğal müddətində heç bir iqtisadi yüksəlişə nail olmadığı aydın hiss olunur.Torpaqların uzun illərdir işğal altında olması ölkə üçün də ziyana səbəb olmuşdur.

**Cədvəl 4 : Zəngilan rayonunun azad edilmiş torpaqlarında əkinçiliyin aqrar potensialının proqnozlaşdırılması**

| | 2022 - ci il | | 2024 - ci il | |
|---|---|---|---|---|
| | sahə ( ha ) | məhsul ( ton ) | sahə ( ha ) | məhsul ( ton ) |
| Buğda | 1600 | 2200 | 1600 | 3000 |
| Arpa | 290 | 440 | 290.1 | 500 |
| Dənli və paxlalılar | 1950 | 2500 | 1950 | 2800 |
| Tütün | 400 | 2000 | 400 | 2840 |
| Üzüm | 5000 | 18000 | 5000 | 22000 |

**Mənbə : Cədvəl müəllif tərəfindən hazırlanmışdır.**

Zəngilan rayonunda yuxarıdakı cədvəldə göstərilən proqnoz göstəricilərinə nail olmaq üçün ilk növbədə aqrar potensialın bərpası və səmərəli istifadəsi təmin olunmalıdır. Eyni zamanda, aqrar bölmədə əməyin intensiv metodlarının tətbiqi ilə istehsalın təşkilinin effektiv formalarına nail oluna bilinər. Kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılmasında “ ağıllı şəhər “ layihəsi , fəaliyyət göstərəcək aqroparklar mühüm rol oynayacaq. Aqroparklar sayəsində xammalın yetişdirilməsi , emalı , qablaşdırılması , saxlanması , çatdırılması – bütün mərhələlər vahid sistemdə birləşərək əhalinin ərzağa olan tələbatının qısa zamanda təmin olunmasına səbəb olur . Buna görə də işğaldan azad olunmuş torpaqlara xarici investisiyalar da cəlb edərək qısa zaman ərzində bərpa və yenidənqurma prosesini sürətləndirmək məqsədəuyğundur.

### 2.2. Mühasibat uçotunun təşkili ilə bağlı Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin dayanıqlı inkişafı istiqamətində görüləcək işlər və planlaşdırılan tədbirlər

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə vətəndaşların məskunlaşması üçün yeni Inkişaf konsepsiyası qəbul etmişdir : " ağıllı kəndlər " . Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illər üçün sosial-iqtisadi inkişafı Dövlət Proqramı iki pilot "ağıllı kənd"in yaradılmasını nəzərdə tutur. Kənd Təsərrüfatı Nazirliyi "ağıllı kəndlər" in "müasir texnologiyalar və birgə idarəetmə və nəzarət" əsasında kənd təsərrüfatına tətbiq ediləcəyini izah edir , lakin konsepsiya kənd təsərrüfatının sadə metodlarından kənara çıxır. Konsepsiya "ağıllı" küçə işıqlandırmasından, soyuqluğa və istiliyə davamlı evlərdən, məişət tullantılarının idarə edilməsindən, hidro - və günəş elektrik stansiyalarının və bioqaz enerjisinin quraşdırılmasından ibarətdir. "Ağıllı kənd" konsepsiyasında avtomatlaşdırmadan geniş istifadə insan əməyinə olan tələbatı da azaldacaqdır.

Bunlarla yanaşı işğaldan azad edilmiş rayonlarda "aqroparklar" sistemi də genişləndirilməlidir.Aqroparklar iri miqyaslı aqrobiznes mərkəzləridir. Azərbaycanda ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi və aqrar-sənaye kompleksinin modernləşdirilməsi məqsədilə aqroparkların yaradılması istiqamətində işlər davam etdirilir. Yaradılan aqroparklar torpaq sahələrindən səmərəli istifadə olunması, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün innovativ və əlverişli mexanizmdir. Bu baxımdan aqroparkların ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində rolu gücləndirilməli, sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməlidir.Hazırda 32 rayon üzrə 240 min hektar ərazidə 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Bunlardan 35-i bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, digərləri çeşidləmə və qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. Artıq 43 aqropark fəaliyyətə başlayıb, digər aqroparklarda isə layihələndirmə işləri aparılır.

(https://azertag.az/xeber/Aqroparklar_haqqinda_Numunevi_Asasname_tesdiqlenib-1957484 , 2021 )

Aqroparkların kənd təsərrüfatı istehsalının digər formaları qarşısında üstünlükləri aşağıdakı məqamlarla müəyyən edilir:

- xammalın yetişdirilməsi prosesləri, onun emalı, qablaşdırılması və saxlanması və istehsal olunan məhsulun çatdırılmasında nəqliyyat xərcləri də daxil olmaqla, məhsul istehsalının bütün mərhələlərini vahid dövriyyədə birləşdirməklə istehsal prosesinin həyata keçirilməsi.

Qeyd olunan istehsal prosesi bir sıra hallarda kənd təsərrüfatı məhsullarının daha keyfiyyətli istehsalı ilə, tullantılardan xammalın təkrar emalı ilə tullantısız texnologiyanın tətbiqi ilə səciyyələnir. Bütün bunlar istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyərinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır və bunun nəticəsi olaraq daxili bazarda və ixracda istehsalın rəqabət qabiliyyətinin və effektivliyinin artmasını təmin edir;

- malik olduğu böyük torpaq sahələri olan aqroparklarda istehsalın daha aşağı maya dəyəri olan aztorpaqlı fermer təsərrüfatlarından fərqli olaraq əkin torpaqlarının emalı, gübrələrin verilməsi, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaqla irriqasiya suvarma sistemlərinin tətbiqi həyata keçirilir.

Son illərin təcrübəsi göstərir ki, Azərbaycanda kənd təsərrüfatında aparılan islahatlara uyğun olaraq kənd təsərrüfatı müəssisələrinin digər formaları ilə müqayisədə taxılbiçən, şəkər çuğunduru, tərəvəz yetişdirilməsi zamanı hektardan yüksək məhsuldarlıq müşahidə olunur. kartof, yonca, Soya, bostan bitkiləri, yağlı bitkilər;

- emal müəssisələrinin aqroparklarda yerləşdirilməsi və onların ucuz xammalla təmin edilməsi heyvandarlıq istehsalının maya dəyərini aşağı salmağa imkan verir ki, qablaşdırılmış ət-süd məhsullarının, o cümlədən konservlərin həcmi artsın.

Bununla yanaşı, aqroparkların tikintisi və fəaliyyəti üzrə investisiyaların səmərəliliyi, bir qayda olaraq, bu cür müəssisələrin düzən ərazilərdə yerləşdirilməsi ilə müşahidə edilir.

Davam edən pandemiyanın qloballaşması şəraitində bu istiqamətin həyata keçirilməsi subyektiv amillərin (ABŞ, Aİ və dünyanın bir sıra digər ölkələrində resessiyanın aradan qaldırılması məqsədi ilə misli görünməmiş pul vəsaitlərinin emissiyası həcmləri nəticəsində qlobal kənd təsərrüfatı bazarında tələb və təkliflər balansının pozulması) və obyektiv amillərin (əkin torpaqlarının, otlaqların, biçənəklərin azaldılması və tükənməsi və bunun nəticəsi olaraq - quraqlıq, yanğınlar, daşqınlar və ətraf mühitin çirklənməsi, şəhər əhalisinin sürətli urbanizasiyası və digər ekoloji və demoqrafik amillər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı) kənd təsərrüfatı məhsullarının qiymətlərinin durmadan artması, aqrar xammal ərzaq məhsullarının proqnozlaşdırılması sonrakı dövrlərdə də gözlənilir.Hökumət tərəfindən bu istiqamətdə aparılan dövlət siyasəti nəticəsində müəyyən işlər həyata keçirilmişdir.

Azərbaycanda Xaçmaz rayonunda yerləşən "Yalama" Dövlət Kənd təsərrüfatı istehsal Damazlıq heyvandarlıq müəssisəsinin bazasında 2016-cı ilin sentyabrında ümumi sahəsi 523 hektar olan ilk Yalama Aqroparkı yaradılmışdır.

Birinci layihə çərçivəsində aqroparkda 3 min baş iribuynuzlu heyvandarlıq kompleksi, 385 ha sahədə iri pambıq təsərrüfatı və saatda 5 ton yem gücünə malik yem zavodu istifadəyə verilib. aqroparkın ehtiyacları üçün və regionda fəaliyyət göstərən fermer təsərrüfatlarına satış məqsədilə istehsal olunur. Layihənin ikinci mərhələsində parkın ərazisində süd zavodu, intensiv bağçılıq təsərrüfatı və iri taxıl təsərrüfatı tikilmişdir.

Sayca ikinci olan Şəmkir Aqroparkı 2017-ci ilin avqust ayında Azərbaycan məhsullarının ixrac coğrafiyasının artırılması, milli brendlərin yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində vahid əlaqələndirici sistemin formalaşdırılması məqsədilə istifadəyə verilib.

Hazırda Şəmkir Aqroparkı istehsal olunan, emal edilmiş Aqro məhsullarının həcmi, növləri və sortları baxımından daha miqyaslı və güclü hesab olunur. Burada respublikada ilk dəfə olaraq müasir istixana kompleksi, intensiv bağ təsərrüfatı, meyvə və tərəvəz emalı zavodu, tara istehsalı fabriki, 12,3 hektar sahəni əhatə edən Logistika Mərkəzi, meyvə və

tərəvəzlərin saxlanmasını təmin edən soyuducu depolar, onların sortundan asılı olaraq minimum itki ilə və keyfiyyətinin qorunub saxlanılmasını təmin edən soyuducu depolar yaradılmışdır.

2018 - ci ilin avqust ayında ümumi sahəsi 602 hektar olan İsmayıllı rayonunda bitkiçilik təsərrüfatı, soyuducu-anbar kompleksi, istehsal olunan kənd təsərrüfatı məhsullarının çeşidləmə və qablaşdırma sahələri daxil edilmiş və bunun yaradılmasına "Buta Qrup" MMC 22 milyon manat vəsait qoyulmuşdur.

2018-ci ilin oktyabr ayında Qax rayonunda "ulu Aqro" MMC-nin Aqroparkının açılışı olub ki, onun yaradılmasına qoyulan dövlət vəsaitlərinin həcmi 13 mln.manatdan çox təşkil edib və 2 mln. manat məbləğində güzəştli kreditlər verilib. Həmin resursların həcmi 1200 hektar sahədə buğda əkini, 65 hektar sahədə qarğıdalı işlərinin təşkilini təmin etmişdir. Araşdırmanın nəticələrinə görə, yaradılmış istehsal potensialından istehsal gücü Qax aqroparkın təşkil edib 5.2 min ton taxıl, 2.4 min ton qarğıdalı, 3 min ton meyvə, 0,5 min ton badam, 0,4 min ton qoz-fındıq.

2020-ci ilin fevral ayında Kürdəmir rayonunun Karrar qəsəbəsində ümumi dəyəri 30 milyon manat olan "Qlobal Aqro" Aqroparkı, o cümlədən 8,1 milyon manat məbləğində dövlət vəsaiti və 1 milyon manat güzəştli kredit verilməsi fəaliyyətə başlamışdır.

2020-ci ilin mart ayında ümumi sahəsi 20 hektar olan Ağstafa rayonunda Qazax rayonunun Çaylı kəndində yerləşən 4,2 hektar nəqliyyat-logistika mərkəzi olan aqropark yaradılmışdır.

Aqroparkda məhsuldarlığı saatda 5 ton olan paxla toxumu istehsalı zavodu, saatda 25 ton taxıl gücünə malik toxum istehsalı zavodu, saatda 200 ton gücə malik təmizləyici avadanlıq və saatda 50 tonluq quruducu avadanlıqla, 36 min ton saxlama qabiliyyəti olan rezervuarlar tikilmişdir. Gündə 120 ton emal gücü olan dəyirman, çörək və yarımfabrikat zavodu, fast-food ictimai iaşə xidməti obyekti, müasir avadanlıqlarla təchiz olunmuş Aqromarket var.

2021-ci ildən etibarən əhalinin sayı baxımından kiçik olan Hacıqabul rayonunda iki böyük aqropark fəaliyyət göstərmiş və yüzlərlə yerli sakin orada işlə təmin olunmuşdur.

20 aprel 2021-ci ildə "Azərsun" Şamaxı Aqroparkının və Agro Dairy Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) Aqroparkının Hacıqabulda açılışı olmuşdur.

Şamaxı Aqroparkı" Azərsun " iki hissədən ibarətdir: taxıl, arpa, şəkər çuğunduru, qarğıdalı, yonca və 5000 baş iribuynuzlu mal-qaranın saxlanması üçün 4200 hektar sahəsi olan əkin sahələri, o cümlədən sutkalıq süd istehsalı ilə 50 ton mal-qaranın istehsalı üçün 77 milyon manat investisiya qoyulmuşdur.

Agro Dairy MMC regionlarda kənd təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsi, əkin sahələrinin müasir texnika və emal texnologiyalarının tətbiqi yolu ilə yüksək məhsuldarlığa malik keyfiyyətli məhsul əldə etmək məqsədi ilə layihələr həyata keçirir. Belə ki, Samux rayonunun Qaraağaclı kəndi, Tovuz rayonunun Ceyrançöl kəndi və Padarçöl (Hacıqabul, Şamaxı) ərazisində müvafiq olaraq 2698, 7000 və 5000 hektar sahələrdə intensiv bitkiçilik təsərrüfatı yaradılmış, əkin dövriyyəsinə yeni ərazilər cəlb olunmuşdur.

Aqroparkda yüksək məhsuldarlıq əldə etmək məqsədilə əkin dövriyyəsindən istifadə olunur, mütərəqqi aqrotexnologiyalar tətbiq olunur, ildə iki dəfə yüksək keyfiyyətli məhsul əldə etməyə imkan verən yanğınsöndürmə səpini həyata keçirilir.

Taxılçılıqda məhsuldarlıq burada hər hektardan 60 sentner və ya altı ton təşkil edir ki, bu da müqayisə üçün postran orta göstəricilərini 2 dəfə üstələyir.

Mütərəqqi texnologiyaların, elmi-texniki nailiyyətlərin və yeniliklərin son nailiyyətlərinin tətbiqi ilə aqrar-sənaye kompleksinin istehsal potensialının məqsədyönlü və ardıcıl şəkildə bərpası Konsepsiyasının həyata keçirilməsi dövlət idarəçiliyi rçaqlarının tətbiqi üzrə kompleks yanaşma ilə birbaşa əlaqəlidir.

Belə. hazırda Azərbaycanda 50-dən çox aqroparkın və ölkənin 33 rayonunda 262 min hektar sahədə iri fermer təsərrüfatının yaradılması proqnozlaşdırılır ki, bu məqsədlər üçün ümumi investisiya həcmi 2,4 milyard manat təşkil edir. 153 min hektar ərazidə 33

aqropark və ümumi dəyəri 1,1 milyard manat olan iri fermer təsərrüfatları fəaliyyətə başlamış, 109 min hektar ərazidə isə 18 aqroparkda və iri fermer təsərrüfatında layihələndirmə və ya tikinti-quraşdırma işləri aparılır.

Aqroparkların məqsədyönlü şəkildə genişləndirilməsi və inkişafında müşahidə edilən dövlət dəstəyi və tənzimlənməsi bir tərəfdən sahibkarlara müəyyən dərəcədə kiçik maliyyə resursları ilə və daha qısa müddətdə göstərilən istehsalatların istismara verilməsi üzrə işləri təşkil etməyə və bununla da investisiyaların qaytarılma müddətini digər tərəfdən azaltmaq qaydasına imkan verir ki, özəl investorlar kənd təsərrüfatı məhsullarının səmərəli təkrar istehsalının diversifikasiya siyasətinin həyata keçirilməsində sabit iştirak etsinlər.

Bu səbəbdən əsasən:

- 2014-cü ildən 2021-ci ilə qədər qısa müddət ərzində ölkədə aqroparkların yuxarıda qeyd olunan sayı yaradıldı;

- Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, aqrar-sənaye kompleksində özəl investisiyalar hazırda 1,2 mlrd.manata çatıb və bu, hökumətin sərmayədarlara imtiyazlar və güzəştlər siyasətini nəzərə almaqla son hədd deyil.

- beynəlxalq maliyyə institutları, donor təşkilatları, həmçinin transmilli aqrar şirkətlər tərəfindən bu cür layihələrin həyata keçirilməsində müəyyən maraq müşahidə olunur.

Hazırda İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi işğaldan azad edilmiş Qarabağ regionunda yeni aqroparkların formalaşdırılması üzrə proqnozlar hazırlayır və onların sırasında "ağıllı kənd təsərrüfatı" nın inkişafına, tarlaların, bağların, bağların suvarılması üzrə kompüterləşdirilmiş texnologiyaların tətbiqinə, heyvandarlıq fermalarının və emal fabriklərinin avtomatlaşdırılmasına, pilotsuz uçan aparatlardan istifadə ilə nəzarət və tozlanmaya yönəlmiş layihələr xüsusi yer tutur.

Qeyd etmək vacibdir ki, ikinci Qarabağ müharibəsinin nəticələrinə görə, işğaldan azad edilmiş ərazilərdə hazırda kənd təsərrüfatı torpaqlarının suvarılması üçün su resurslarının potensialı bərpa olunub.

Ekspertlərin hesablamalarına görə, Qarabağın azad edilmiş ərazilərində su ehtiyatları 125 min hektar suvarılan torpağı əhatə edir. Burada ümumi tutumu 8 milyon kubmetr olan 640 su anbarı vardır. Orada başqa su təsərrüfatı obyektləri də vardır.

Söhbət, ilk növbədə, Suqovuşan, Xudafarin və Sərsəng su anbarları, Valvalaçay kimi su ehtiyatlarından Qarabağ regionunda kənd təsərrüfatının inkişafına müəyyən töhfə verə biləcək əkin torpaqlarının suvarılmasından gedir.

Yuxarıda sadalanan tədbirlərin həyata keçirilməsi Qarabağ regionunda məhsulları ixraca istiqamətlənmiş yüksək texnologiyalı, rəqabətqabiliyyətli aqrar sektorun formalaşdırılmasına imkan verəcək.

Aqropark müəssisələrinin yaradılması istiqamətində göstərilən işlərin məqsədyönlü və vaxtında aparılması ilə yüksək effektiv kənd təsərrüfatı bitkilərinin və kənd təsərrüfatı məhsullarının geniş bərpasını təmin edən:

- bu sahələrin təsərrüfat əlaqələrinin kooperasiyası və ixtisaslaşdırılması nəzərə alınmaqla, aqrar sənayeyə məxsus istehsal potensialından istifadənin səmərəliliyi əhəmiyyətli dərəcədə artacaq:

- yuxarıda qeyd olunan malların bahalaşmasına yetərincə nəzərəçarpacaq təsir göstərən idxal əməliyyatlarının həcminin müəyyən dərəcədə azalması üçün şərait yaradılacaq;

- aqrar məhsullara tələbat nəzərə alınmaqla, xarici bazarlarda beynəlxalq standartlara uyğun olaraq ixrac əməliyyatlarının həyata keçirilməsi üçün geniş imkanlar açılacaqdır;

- aqrar məhsulların ümumi ixrac tədarüklərində emal edilmiş və qablaşdırılmış meyvə-tərəvəz məhsullarının və emal edilmiş xammalın payı artacaq və bununla da onun postsovet məkanından kənara diversifikasiyasının geniş üfüqləri açılacaq.

İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən Zəngilan rayonunda 2021 – ci ilin 26 oktyabr tarixində “Dost Aqropark” nın təməli qoyulub . Bu layihənin üç mərhələdə icra olunması nəzərdə tutulub.

İlk olaraq tikilməsi nəzərdə tutulan binalar bunlardır : inzibati və yaşayış binaları , heyvandarlıq kompleksləri ( yarı açıq , yarı qapalı ) , sosial obyektlər , kinoteatr binası , kafe , restoran , istirahət məqsədli binalar, xidməti heyətin qalması üçün binalar. Tikilməsi nəzərdə tutulan kompleksdə mövcud olacaq otlaqlarda 4 min baş cins qaramalın yetişdirilməsi nəzərdə tutulub. Əkinçilik məhsullarının və digər fəaliyyət sahələrinin inkişafı üçün də şərait təmin ediləcək. Həyata keçiriləcək bütün işlər Azərbaycan və Türkiyənin qida təhlükəsizliyinə öz töhfəsini verərək xarici bazarlara çıxarılmasında mühüm rol oynayacaq.

Nəzərdə tutulmuşdur ki , "Dost Aqropark " layihəsi başa çatan zaman 6 min hektar ərazidə bitki mənşəli məhsul istehsal edən müəssisələr yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün isə maldarlıq, toxumçuluq və şitilçilik müəssisələri salınacaq. Tikilməsi nəzərdə tutulan təsərrüfat subyektlərinə bölgə üçün hədəflənən ət emalı və qablaşdırma , 100 min ton həcmə malik kənd təsərrüfat müəssisələri aiddir. Eyni zamanda tikiləcək kompleks rayonu toxum , gübrə , kənd təsərrüfat məhsulları ilə də təmin edəcək. "Dost Aqropark " kompleksi həm də məskunlaşan əhalinin işlə təmin olunmasında da mühüm rol oynayacaq , belə ki 500 nəfərin işlə təmin olunması planlaşdırılır. Tətbiq ediləcək yeni texnologiyalar sayəsində müəssisələrin fəaliyyəti bərpaolunan və dayanıqlı enerji resurslarına əsaslanacaq.

Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərində 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı çərçivəsində yaradılacaq ilk "ağıllı kənd" pilot layihəsini təqdim edib. Belə ki , birinci layihə Zəngilan şəhərinin I, II, III Ağalı kəndlərini əhatə edir. Layihə beş komponent üzrə – mənzil sektoru, istehsal sektoru, sosial xidmətlər, intellektual kənd təsərrüfatı və alternativ energetika üzrə icra ediləcəkdir. Əvvəlcə 200 fərdi ev yenilikçi tikinti materiallarından istifadə edilərək inşa ediləcək. Bundan başqa, evlərdə mühəndislik kommunikasiyaları və istilik sistemləri də intellektual texnologiyalar əsasında yaradılacaq. Həmçinin bu kəndlərdə müasir məktəblər, uşaq bağçaları, poliklinikalar və elektron idarəetmə mərkəzləri tikiləcək, həmçinin turizm infrastrukturu formalaşdırılacaqdır. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati binalar və ictimai

iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı müəssisələri  Alternativ enerji mənbələri ilə təmin ediləcəkdir.

Azad edilmiş ərazilərin bərpası ilə bağlı mühüm aspektlərdən biri xarici şirkətlərin "ağıllı şəhər"layihəsində iştirak etməsi ilə bağlıdır. Prezident İlham Əliyev bu məsələ ilə bağlı ölkənin mövqeyini dəfələrlə səsləndirmiş, əməkdaşlıqda maraqlı olduğunu bildirmiş və bütün dost ölkələri azad edilmiş ərazilərdə bərpa işlərində iştirak etməyə dəvət etmişdir. Azad edilmiş torpaqların bərpasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri iştirak edirlər.Türkiyə mütəxəssisləri azad edilmiş torpaqlarda Alternativ enerji layihələrində iştirak etməyə hazır olduqlarını bildiriblər, Çin informasiya-kommunikasiya texnologiyaları (İKT) şirkəti Qarabağ regionunda yenidənqurma işləri aparacaq ,  rayonlarda ən qabaqcıl rəqəmsal texnologiyaları tətbiq edəcək.

Huavei -Azərbaycan baş direktoru isə şirkətin Qarabağda ən müasir texnologiyaları təqdim etməyə və gələcəkdə ağıllı kəndlərin inkişafında iştirak etməyə hazır olduğunu vurğulayıb.Ey ni zamanda o , bildirib ki , "Ağıllı şəhər "və" ağıllı kənd "texnologiyalarının aparıcı təchizatçısı olan şirkətimiz bu sahədə böyük təcrübəyə malikdir və onun hesabında 100-dən çox qlobal layihə var. Biz Qarabağda "ağıllı kənd" üçün ən qabaqcıl texnologiyaları təmin etmək üçün ən son məhsul və texnologiyaları təqdim edəcəyik. Biz ilk dəfə olaraq Azərbaycanda airpon Gigabit texnologiyasından istifadə edəcəyik. Texnologiya fiber-optik kabellərin çəkilməsini 10 kilometrdən 1 kilometrədək azaltmağa imkan verir. Beləliklə, biz şəbəkə tikintisini sürətləndirə və xərcləri saxlaya bilərik. "Ağıllı kənd" layihəsinin birinci mərhələsi təhlükəsiz yaşayış mühitinin yaradılmasını, həmçinin "ağıllı təhsil", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemlərinin Qarabağda tətbiqini əhatə edəcək".

Bununla yanaşı, İtaliya və İsrail artıq azad edilmiş Zəngilan rayonunun ağıllı şəhərə çevrilməsi üzrə birgə layihəni həyata keçirməyə başlayıblar. İsrail şirkəti bir süd təsərrüfatı qurmaq niyyətindədir. Belə ki ,  İsrail texnologiyasından istifadə edilərək süd məhsulları istehsal etmək mümkün olacaq.

İşğaldan azad edilmiş rayonlarda davamlı inkişaf, ətraf mühitə yanaşma ilə inkişaf, bərpa olunan texnologiyalara və ilk növbədə bərpa olunan enerji mənbələrinə əsaslanacaq yeni iqtisadi model formalaşdırılmalıdır. Bu baxımdan, "ağıllı şəhər" layihəsinin gerçəkləşdirilməsi faktiki olaraq, yerli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş tendensiyadır, çünki bura enerjiyə qənaət edən texnologiyalar, alternativ energetikanın inkişafı və eyni zamanda, ölkənin texnoloji səviyyəsinin ümumi artımı daxildir.

"Ağıllı şəhər" in də xarakterik cəhət informasiya texnologiyalarının bütün sahələrdə və bütün səviyyələrdə tətbiq edilməsidir. Rəqəmsal texnologiyalar həyat səviyyəsini yüksəltmək, vətəndaşlar üçün dövlət xidmətlərini yaxşılaşdırmaq, resursların daha səmərəli istifadəsini təmin etmək, ətraf mühitə təsirini azaltmaq və məhsul və inkişaf etmiş proseslər baxımından kənd istehsal-satış zəncirləri üçün yeni imkanlar yaratmaq üçün nəzərdə tutulmuşdur.

Çünki dünya iqtisadiyyatında ekvivalent xarici ticarət mübadiləsinə nail olmaq üçün ölkə iqtisadiyyatında yüksək texnologiyalı seqmentlərin payını artırmaq lazımdır. Yeni texnologiyaların idxalının zəruriliyini nəzərə alsaq , bu layihənin həyata keçirilməsində xarici tərəfdaşlarla əməkdaşlıq vacib amillərdəndir. Bu baxımdan iqtisadiyyatın yüksək texnologiyalı seqmentlərində ixtisaslaşmış dünyanın aparıcı şirkətləri ilə əməkdaşlıq genişləndirilməlidir. Çünki Azərbaycan xarici investisiyaların artması üçün zəngin daxili resurslara malikdir və xarici sərmayələr xüsusilə texnologiyaların idxalı kontekstində lazımdır. İlk növbədə, investisiya siyasətinin prioritetləri baxımından maliyyə resursları və investisiya axınları iqtisadiyyatın innovativ sahəsinə yönəldilməlidir. Bu sahə insan kapitalının, süni intellektin, rəqəmsallaşmanın, biotexnologiyaların və yeni texnoloji amilin əsasını təşkil edən digər istiqamətlərin inkişafına da təkan verəcəkdir.

**2.3. Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin dayanıqlı inkişafında səmərəli texnologiyaların tətbiqi və yeni infrastukturun yaradılması ilə bağlı uçot siyasətinin tətbiqi xüsusiyyətləri**

İşğaldan azad edilmiş rayonlarda əhalinin dayanıqlı məskunlaşmasının təmini Azərbaycanın qarşıya qoyduğu əsas məqsədlərdən birini təşkil edir. Dayanıqlı inkişafa nail olmaq üçün dövlət ilə yanaşı özəl müəssisələr də yaxından iştirak etməli , onların əlaqəsi möhkəmləndirilməlidir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq.İqtisadi resurslardan daha səmərəli istifadə edərək onları əlavə dəyər yaradan sahələrə istiqamətləndirmək üçün özəl təşəbbüslər inkişaf etdirilməlidir.

Bütün bunları nəzərə alaraq Zəngilan və digər rayonlarda fərdi, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin yaradılmalı və onlar müasir texnika və texnologiya ilə təchiz edilərək , yerli xammal, enerji və digər resurslardan səmərəli istifadə etmək imkanı olan fəaliyyət sahələri üzrə onun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə imkan yaratmış olacaqdır:

- Rayonların spesifik xüsusiyyətləri nəzərə alınaraq kənd təsərrüfatı müəssisələrinin , xırda və iri buynuzlu heyvan dərilərinin emalı zavodu, süd məhsulları istehsal edən müəssisələr , arıçılıq və s aqroparklar və müştərək müəssisələr yaradılmalıdır. Aparıcı dünya ölkələrinin təcrübələrinə əsaslanaraq Qarabağda mövcud olan 329 inzibati ərazi dairəsində kəndlərin sayı üç və daha çox olan, əhalinin sayı isə 200-1000 nəfər təşkil edən 161-də ixtisaslaşan və yaxud qarışıq tipli aqroparkların yaradılması mümkündür ;
- Kəlbəcər və Zəngilan rayonlarında zəngin faydalı qazıntı yataqlarının olması müştərək dağ-mədən və əlvan metal istehsal edən müəssisələrin yaradılmasına imkan verə bilər;

- Azad edilmiş rayonların real sənaye potensialı orada sənaye və xidmət məhəlləsinin yaradılması imkanlarını gerçəkləşdirə bilər;
- Azad olunan inzibati rayonlar üçün tərtib edilməsi nəzərdə tutulan özünüməşğulluq proqramına əsasən kənd təsərrüfatının müxtəlif sahələrində həm fərdi həm də mikro sahibkarlıq fəaliyyətinin təşkili;
- Məskunlaşacaq əhalinin maddi halının yaxşılaşmasında iri və xırdabuynuzlu heyvan dərilərinin aşınması və onlardan geyim əşyalarının və digər xalq istehlakı mallarının istehsalının təşkili də müsbət rol oynaya bilər;
- Türkiyənin uğurlu təcrübəsinə əsaslanaraq azad edilmiş rayonların dağlıq kənd və qəsəbələrində fərdi , mikro və kiçik sahibkarlıq subyektlərində , yaşayış massivlərində alternativ və bərpa oluna bilən resurslardan istifadə edilməsinə üstünlük verilməsi məqsədəuyğudur;

İşğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsi çərçivəsində kiçik təsərrüfatlar yaradılacaq. Nəzərdə tutulan layihənin həyata keçirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi , Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Zəngilan Rayon İcra Hakimiyyəti yaxından iştirak edir. Ağalı kəndinin 30 sakini kənd sakinlərinin məşğulluğunun təmin edilməsi və kiçik sahibkarlığa dəstək məqsədi daşıyan layihəyə cəlb olunub. Sahibkarlar üçün biznes təlimlərinin təşkil edilməsində KOBİA da yaxından iştirak edir. Həyata keçirilən təlimlərdə iştirak edənlərə sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə ətraflı məlumat verilib. İşğaldan azad olunan Ağalı kənd sakinlərinin özünüməşğulluq proqramı çərçivəsində avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. iqtisadi sahələr üzrə avadanlıqlarla təmin olunmasında Dövlət Məşğulluq Agentliyinin də dəstəyi böyükdür.

Müasir dövrdə bütün dünyada artıq kənd təsərrüfatında yeni mütərəqqi texnika və texnologiyaların tətbiqi əl əməyindən istifadə olunmasını minimuma endirib. Əkin sahələri dronlar vasitəsilə dərmanlanır , məhsul yığımında kompüterləşdirilmiş

texnikalardan istifadə olunur , müasir suvarma sistemlərinin tətbiqi ilə təbii su mənbələrinə qənaət edilir. Bütün bu əməliyyatlar bir mərkəzdən idarə olunduğu üçün xərclərə qənaət edib gəlirliliyi artırmaq mümkündür. İşğaldan azad edilmiş Zəngilan rayonunda da tətbiq olunacaq “ Ağıllı kənd “ layihəsi ora qayıdan əhalinin həyat şəraitini yaxşılaşdıraraq aqrar sahədə çalışacaq fermerləri daha da stimullaşdıracaq.

21-ci əsrdə fermerlər GPS texnologiyalar vasitəsilə torpağın taranmasına, suyun idarə edilməsinə, işıqlandırılmasına, rütubətə, temperatura, avtomatik yağış tökülməsinə, dəqiq əkinçiliyə, məlumatların idarə olunmasına çıxış əldə edirlər. Ağıllı kənd təsərrüfatı sayəsində fermerlər mobil qurğularından istifadə edərək istənilən yerdən sahələrin vəziyyətini nəzarət edə bilərlər. Əşyaların İnterneti əsasında intellektual kənd təsərrüfatı yüksək səmərəliliyi ilə seçilir. Bu əkinçilik ənənəvi yanaşma ilə müqayisədə dəqiq və sərfəli edir.

Dünyada insan müdaxiləsi olmadan kənd təsərrüfatında istifadə oluna biləcək texnikalar üzərində işlənilir. Onlardan biri də sürücüsüz traktorlardır. Bildiyimiz kimi traktorlar kənd təsərrüfatının ayrılmaz bir hissəsidir. Sensorlar ilə təchiz edilmiş traktorlarla, eləcə də tarlalarda sensorlar ilə fermerlər torpağın vəziyyəti, torpağın nəmliyi və bitkilərin əldə etdiyi günəş işığının miqdarı haqqında real vaxt rejimində məlumatları qeyd edə bilərlər. Toplanan məlumatların təhlili fermerlərə dünyanı daha ağıllı bir şəkildə qidalandırmağa davam etmək üçün lazım olan məlumatları verir.

Bu tip agrotexnologiyalardan istifadə həm resurslara , vaxta , pula qənaət edəcək , həm də böyük miqdarda yüksək keyfiyyətli qida məhsulları ilə təmin edəcək. Hesab edilir ki , kənd təsərrüfatlarının aqrotexnikayla təchiz edilməsi gələcəkdə ərzağa olan tələbatın ödənilməsi probleminin həlli ola bilər, Ağıllı şəhərlər isə bu məsələdə öz mühüm rolunu oynamağa davam edir.( https://www.interestingengineering.com/iot-and-smart-agriculture-are-building-our-future-cities-today , 2021 )

Yuxarıda qeyd edilən dünya təcrübəsində istifadəsi nəzərdə tutulan infrastrukturun Zəngilana tətbiqi ilə kənd təsərrüfatı sahələrindən daha yüksək məhsul əldə etmək mümkündür. Təbii ki , bütün bunların həyata keçirilməsi böyük vəsait tələb edir. Bu da

öz növbəsində xarici investisiyaların cəlb ediciliyini zəruri edir. Böyük Britaniyanın dəstəyi daha çox texnoloji sahəyə yönümlüdür. Macarıstan dövlətinin xarici işlər və ticarət naziri Peter Siyarto bildirib ki, milli “Exim Bank” artıq azad edilmiş Azərbaycan torpaqlarının bərpasında iştirak etmək niyyətində olan Macarıstan şirkətləri üçün 100 milyon dollar məbləğində kredit xətti açıb. (https://www. ikisahil.az/post/196716-xarici-investorlar-qarabaga-boyuk-maraq-gosterirler , 2021) Nəticə etibarilə həm Azərbaycan dövləti , həm də xarici dövlətlər azad edilmiş rayonlarda aparılan bərpa və yenidənqurma prosesində iştirak edəcək şirkətlərə müəyyən güzəştlər edərək onları stimullaşdırır.

# III FƏSİL. ZƏNGİLAN RAYONUNUN KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ İLƏ BAĞLI YARANMIŞ PROBLEMLƏRİN HƏLLİ YOLLARI

## 3.1 Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin istehsal potensialını artıran güzəşt və imtiyazların mühasibat uçotunda əks etdirilməsi

Işğaldan azad edilmiş rayonlarda bərpa və quruculuq işləri ilə yanaşı, zəngin iqtisadi sərvətləri olan bu torpaqların milli iqtisadiyyata inteqrasiyası istiqamətində tədbirlər də davam etdirilməkdədir. Strateji plana əsasən, həmin bölgələrdə istehsal, emal, ticarət və xidmət infrastrukturunun yaradılması, yeni texnologiyaların tətbiqi, investisiya cəlbediciliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə sahibkarları həvəsləndirmək üçün xüsusi güzəştlərin, müxtəlif iqtisadi, maliyyə və institusional stimulların tətbiqi hazırlanır.

İşğaldan azad edilmiş rayonlarda məskunlaşacaq əhalinin çox hissəsi kənd təsərrüfatı ilə məşğul olan ailələrdir . Heyvandarlıq, üzümçülük , tütünçülük , bağçılıq və s sahələrin inkişaf etdiyi Zəngilan rayonunda işğal müddətində torpaqlar yararsız hala düşüb , öz münbitliyini itirib, infrastruktur obyektləri dağıdılıb. Dövlət tərəfindən həyata keçirilməsi nəzərdə tutulan "ağıllı kənd", "ağıllı şəhər" layihələri içərisində "ağıllı təsərrüfat"ın yaradılması qarşıya qoyulan əsas məqsədlərdən biridir. Kənd təsərrüfatının inkişaf ının mümkün olması üçün ilk öncə ərazilər əkinə yararlı hala salınmalıdır.

Eyni zamanda həmin ərazilərdəki kənd təsərrüfatı müəssisələrinə ediləcək sosial sığorta ödənişləri, gömrük rüsumları, qaz, elektrik enerjisi, su təchizatı sahəsində güzəştlər özəl sahibkarları işğaldan azad olunmuş ərazilərdə iş qurmağa stimullaşdıracaq . Bunun üçün daxili investisiya mənbələrindən maksimum dərəcədə istifadə etməklə yanaşı xarici maliyyə mənbələri də cəlb edilməlidir. İşgüzar fəallığın tələb olunan formada artırılması üçün bir sıra addımlar atılmalıdır : pul – kredit siyasəti stimullaşdırıcı məzmun almalıdır. Eni zamanda qaz , elektrik enerjisi, su təchizatı , sosial sığorta ödəmələrində də bir sıra güzəştlərin tətbiq edilməsi investisiya cəlbediciliyini artıracaq.

Tətbiq edilən güzəştlər həm yerli həm də xarici investorların azad edilən torpaqlara

gəlməsini stimullaşdıracaq. Azad olunmuş rayonları bərpa etməklə oradakı iqtisadiyyatın ölkə iqtisadiyyatına inteqrasiyasına nail olunmaq üçün stimullaşdırıcı addımların atılması zəruridir.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalının dövlət büdcəsinin vəsaitləri hesabına güzəştli kreditlərlə maliyyələşdirilməsi bu sahəyə göstərilən diqqətin nümunəsidir. Kənd təsərrüfatı məhsul istehsalçılarına tətbiq edilən güzəştlər onların xərclərinin azaldılmasına , yerli məhsulların da istehlakçılara əlverişli qiymətlərlə təqdim edilməsinə səbəb olur.

(https://www.agro.gov.az/uploads/documents , 2020 )

Prezident İlham Əliyevin 10 dekabr 2021-ci il tarixli “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Sərəncamında həmin bölgələrdə kənd təsərrüfatı məhsul istehsalı ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyənləşdirilməsi ilə əlaqədar olaraq Vergi Xidmətinə müəyyən təkliflərin hazırlanması tapşırılıb.( http://www. ulfet-az.com/ , 2021)

Hazırda Dövlət Vergi Xidməti tərəfindən həmin ərazilərin iqtisadi diaqnostikası aparılaraq dərin təhlillər əsasında təkliflər hazırlanır. Nəzərdə tutulan təkliflər arasında işğaldan azad edilən rayonlarda vergi güzəştlərinin tətbiq olunması, yeni yaradılacaq istehsal müəssisələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi, mövcud olan turizm potensialının inkişaf etdirilməsi üçün vergi təşviqlərinin təmin olunması nəzərdə tutulubdur.

Təkliflərə əsasən, Zəngilanda kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olacaq mülkiyyətçilərin torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilməsi nəzərdə tutulur. Həmin ərazilər böyük sənaye potansialına malikdir və investisiya cəlbediciliyini artırmaq üçün Sənaye Texnologiyalar Parklarında, Ələt Azad İqtisadi Zonasında vergi və gömrükdə tətbiq edilən güzəştlərin azad edilmiş rayonlara da tətbiqi nəzərdə tutulub. Məsələn Cəbrayılda yeni fəaliyyətə başlayan “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında ilk xarici investorlar qeydə alınıb, Rusiyanın “KamAZ” ASC şirkəti tərəfindən bu ərazidə ilk investisiya layihəsinin icra olunur. İnvestisiya qoyacaq sərmayəçilər üçün vergi güzəştlərinin tətbiqi nəzərdə tutulubdur.

Hazırda Türkiyə, Rusiya, Pakistan, Macarıstan, Qazaxıstan, Çin, İtaliya, İsrail və Cənubi Koreya şirkətləri yanaşı 50-dən çox xarici şirkət işğaldan azad edilmiş ərazilərin bərpası üzrə layihələrdə iştirak etmək üçün hökumətə müraciət edib. Həmin şirkətlər üçün də vergi güzəştlərinin tətbiqi planlaşdırılır. Xarici sərmayəçilərlə yanaşı yerli sahibkarların da işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti həyata keçirtək istəyi hədsiz dərəcədə böyükdür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə işğaldan azad olunan iqtisadi rayonlarda işləmək niyyətləri olan xeyli sahibkar müraciət etmişdir. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinə tətbiq edilməsi nəzərdə tutulan güzəştlər arasında həm mənfəət, həm də gəlir vergisi üzrə güzəştlər nəzərdə tutulur.

Azad edilmiş rayonlarda fəaliyyət göstərmək istəyən yerli sahibkarlıq subyektlərinin investisiya təşviqi sənədi əldə etməsi qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəştlərindən istifadə etmələrini daha asan edəcək. Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən 2022-ci il yanvar ayının 1-dən 3 il müddətinə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, kənd təsərrüfatı məhsul istehsalında istifadə olunan texnikaların operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalında nəzərdə tutulan aqrotexniki xidmətlər də ƏDV-dən azad edilibdir. Buna görə də, bu qrupa daxil edilən bütün sahibkarların azad edilmiş ərazilərdə ən azı 5 növ vergi ödəməyəcəyi nəzərdə tutulmuşdur .( https://www.e-qanun.az/framework , 2022 )

İşğaldan azad edilmiş rayonlarda fəaliyyət göstərən sahibkarlara sosial sığorta və digər güzəştlərin tətbiq edilməsi , eyni zamanda sərfəli və güzəştli kreditlərin verilməsi onları daha da stimullaşdıracaq. Bir sözlə azad edilən ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan layihələrə üstünlük veriləcək , sahibkarlara təqdim edəcəkləri biznes plana əsasən güzəştli kreditlərin verilməsi daha asan olacaq.

Bəs Vegi güzəştlərinin hansı əhəmiyyəti olacaqdır?

Kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün azad olunmuş rayonlara iqtisadi stimulların verilməsi bərpa prosesində müsbət rol oynayacaq. Regionun təbii – relyef xüsusiyyətləri nəzərə alınmaqla daha çox kənd təsərrüfatı sahələri üstünlük təşkil edəcək. Əsasən ət və süd məhsulları istehsal edən müəssisələrin, üzümçülük, tütünçülük,

baramaçılıq və arıçılıq sahələrinin bərpası və yenidənqurulması həyata keçiriləcək. Bu sahələrlə yanaşı regionda yeni aqrar layihələr, intensiv meyvəçilik , tərəvəzçilik sahəsinin inkişafı da nəzərdə tutulub. Həmin torpaqlarda həyata keçirilən stimullaşdırıcı tədbirlər sayəsində yaxın illərdə kənd təsərrüfatı sahələrində artımın 9 % - i, ölkə üzrə buğda istehsalının isə 10 – 12 % - i Qarabağ bölgəsinin payına düşəcək.

İşğaldan azad edilmiş rayonlarda turizm , tikinti , istehsal , kənd təsərrüfatı məhsullarının tədarükü və emalı ilə bağlı geniş imkanlar mövcuddur. Bu sahələrdə fəaliyyət göstərmək istəyən sahibkarlar üçün əlverişli şərait mövcuddur. Hal-hazırda həmin sahələr üzrə rəqabət olmadığı üçün investisiya qoyan ilkin sərmayəçilər daha çox qazanc əldə edəcək.

Zəngin təbii sərvətlərə , faydalı qazıntılara malik olması daha çox investisiya qoyuluşuna təşviq edəcək . Həm dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi, həm də bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması onu deməyə əsas verir ki, Zəngilan ərazisində yerləşən qızıl yataqlarının istismarı iqtisadiyyatın inkişafına öz töhfəsi verəcək .(https://aqreqator.az/az/iqtisadiyyat ,2021 ) Genişmiqyaslı bərpa fəaliyyətləri və yeni infrastrukturun qurulması tikinti sektoru üçün yeni imkanlar açır. Bütün bunlar xarici investorları da maraqlandırır.

Ekspertlər hesab edirlər ki, Qarabağda kiçik və orta biznesin inkişaf etdirilməsi bu yerlərdə iqtisadi canlanmaya müsbət təsir edəcək. Eyni zamanda iri şirkətlərin fəaliyyət göstərməsi məşğulluğun formalaşdırırılmasında da böyük rol oynayır. Lakin iqtisadi sistemin mərkəzində KOB-lar yer almalıdır. Bunun üçün ən əsas məqsəd KOB – ların maliyyə mənbələrinə əlçatanlığının təmin edilməsidir.

(https://stm.az/az/news/824/azerbaycanda-biznes-muhiti-ve-imkanlar 2019 )

İşğalda azad olunan rayonlarda Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəldilən güzəştlər mühüm əhəmiyyət kəsb edir. Tətbiq olunması nəzərdə tutulan güzəştlər əldə olunan mənfəətin vergiyə cəlb edilməsi zamanı tətbiq olunan bütün vergi güzəşt və imtiyazlarının əksər hissəsini təşkil edir . Tətbiq edilməsi nəzərdə tutulan vergi güzəştləri və imtiyazların iqtisadiyyatda rolunun araşdırılması , xarici ölkələrdə və

Azərbaycanda istifadə olunan vergi güzəştlərinin müqayisəli təhlili həm nəzəri həm də praktiki əhəmiyyət kəsb edir. Bütün əsas vergi növlərinə tətbiq edilən vergi güzəştlərinin hər birinin məqsədli təyinatı müvafiq vergi növünün xüsusiyyətindən asılıdır.

### 3.2. Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təşkilində dünya ölkələrinin təcrübəsinin tətbiqi

Aqrar sahədə müəssisələrdə mühasibat uçotu vasitəsi ilə resursların həcmi , bazar dəyəri , istehsal imkanı (xammal və materialların həcmi) və səmərəliliyin yekun göstəricisi olan rentabellik ilə bağlı mühüm informasiyalar əldə etmək mümkündür. Beləliklə aqrar müəssisələr öz resurslarının həmin istiqamətlərdə daha düzgün bölgüsünü aparmaqla dayanıqlı inkişafını təmin edə bilərlər.

Dünya ölkələrinin təcrübəsindən də göründüyü kimi müəssisələr mühasibat uçotu informasiya sistemindən istifadə etməklə kənd təsərrüfatı məhsullarının faktiki maya dəyərini hesablaya və məhsuldarlığını asanlıqla ölçə bilərlər. Effektiv mühasibat uçotu informasiya sisteminə malik olmayan müəssisə rəhbərləri də düzgün və aktual informasiya əldə etməkdə çətinlik çəkəcəklər. Mühasibat uçotu informasiya sistemindən istifadə etməklə əldə olunan gəlirləri və çəkilən xərcləri qiymətləndirə bilərlər. Yuxarıda qeyd olunan kənd təsərrüfatı uçotunun faydalı tətbiqi ilə yanaşı, mühasibat məlumatlarının toplanması üçün bir çox normativ aktlar da mövcuddur.

Məsələn, 10 ölkə arasında tətbiq olunan "fermer təsərrüfatlarının Mühasibat uçotu məlumat şəbəkəsi" (FADN) reqlamenti - 1965-ci ildə Avropa İqtisadi Birliyinin (AİI) üzvləri də bu gün Avropa İttifaqının (Aİ) 28 üzv ölkəsi arasında tətbiq edilir. Buna baxmayaraq FADN "Beynəlxalq mühasibat uçotu standartı 41" (IAS) 41) 2003-cü ildə qüvvəyə minmiş kənd təsərrüfatında mühasibat uçotunun aparılması praktikasının açıq əhəmiyyətini əks etdirir.

İnkişaf etmiş ölkələrdə sənaye və ticarət müəssisələrində olduğu kimi kənd təsərrüfatı müəssisələrində də mühasibat uçotuna lazımi diqqət göstərilir. Bəzi ölkələrdə məsələn ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Fransa və İngiltərə kimi kənd təsərrüfatı müəssisələrində istifadə olunan əməliyyatların uçot standartları uzun müddətdir ki, tətbiq olunur və 2003-cü ildən kənd təsərrüfati ilə bağlı MUBS-ın tətbiqi ilə Avropa Birliyində müştərək prinsiplərə əsaslanan kənd təsərrüfatı müəssisələri mühasibat uçotu informasiya şəbəkəsi (Farm Accountancy Data Network: FADN) qurulub.

Müharibə zamanı iqtisadi çətinliklər bütövlükdə mühasibat uçotunun təşkilinə təsir

göstərir.Belə ki , əmək ehtiyatları azaldıqca hər bir mövcud işçidən maksimum dərəcədə istifadə edilməsi daha da vacib olurdu. Bu sahə ikinci dərəcəli hesab olunurdu , bütün diqqət sənaye müəssisələrinin inkişafına yönəlmişdi.

Dünya ölkələrinin təcrübəsinə əsasən azad olunmuş rayonların kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təsərrüfat subyektinin fəaliyyətinə tez adaptasiya oluna bilən formasının təşkili əsas proritetdir. Bu zaman iri kənd təsərrüfatı müəssisələri üçün mükəmməl forma , orta və xırda müəssisələr üçün isə sadələşmiş uçotun tətbiqi daha məqsədəuyğundur.

Xarici müəssisələrin də təcrübəsi nəzərə alınaraq qəbul edilməsi nəzərdə tutulan qərarların qəbuluna təsiri ola biləcək bütün informasiyalar eləcə də uçotada bütün təsiredici faktorlar birinci formanın tətbiqi zamanı nəzərə alınmalıdır. Ancaq ikinci formanı tətbiq edən zaman əsasən yerli qanunvericilik aktları və vergi uçotu nəzərə alınmaqla uçot sistemi müəyyənləşdirilməlidir. Bu iki tip forma arasında əsas fərqlilik ondan ibarətdir ki , iri həcmli müəssisələrin əsas tələbinin investorlara çıxışın olması və beynəlxalq standartların tələblərinə əməl etmə həssaslığıdır. Digər tərəfdən, orta və xırda müəssisələr öz fəaliyyətlərində əsasən daxili bazarlara fokuslanır və daxili hesabatlıq sistemi onları daha çox yerli qanunvericiliyin təsir dairəsinə salır.

Dinamik inkişaf edən iqtisadiyyat bütün bazar iştirakçılarından dəyişən iqtisadi mexanizmlərə əhəmiyyətli sınaq və uyğunlaşma tələb edir. Kənd yerlərində çoxfunksiyalı inkişaf iqtisadi stimullaşdırma üsullarından biridir. Bu çoxfunksiyalı inkişafda fermerlərin kənd təsərrüfatı müəssisələrinin fəaliyyətində əhəmiyyətli iştirakı istehsal funksiyasına Alternativ və əlavə gəlir mənbəyidir. Bu inkişafa nümunə kimi Polşanın Karpat regionunu misal göstərmək olar. Bu bölgə əhəmiyyətli miqdarda (qiymətli) təbiətə və landşafta malikdir. Burada Polşanın bütün regionlarından ən çox kənd təsərrüfatı subyektləri yerləşir və eyni zamanda təsərrüfatların sahibləri təqdim olunan xidmətlərin keyfiyyətinə getdikcə daha çox diqqət yetirirlər, innovativ layihələri tətbiq edirlər. Bu əsas amillər sayəsində region Pro AKİS layihəsi çərçivəsində həyata keçirilməsi üçün tematik tədqiqat kimi seçilmişdir.PRO AKIS "kənd təsərrüfatı subyektlərinə dəstək perspektivləri: Avropa kənd təsərrüfatı bilikləri və informasiya sistemlərində məsləhət xidmətləri" layihəsidir.

Kənd təsərrüfatı rayonlarının davamlı inkişafının təmin edilməsi baxımından səmərəli texnologiyaların tətbiqi və yeni infrasutrukturun yaradılması xüsusilə vacib hesab edilir. Polşada təsərrüfatların modernləşdirilməsi özünu xüsusilə kənd təsərrüfatı müəssisələrində və qeyri-kənd təsərrüfatı iqtisadiyyatında göstərə bilər. Bundan əlavə, yeni iş yerləri yaradılaraq kənd təsərrüfatı ilə məşğul olan subyketlərin gəlirlərinin artırılması və yaşayış səviyyəsinin yaxşılaşdırılmasına çalışılır .

Polşada Mühasibat uçotu sistemlərinin fermer təsərrüfatlarının iqtisadi və maliyyə nəticələrinə necə təsir göstərməsi ilə bağlı Polşa FADN yaradılıb. Beləliklə, FADN sistemi nəticələri proqramlaşdırma üçün istifadə olunan zəruri və əvəzsiz bir vasitə kimi qəbul edilib. Bu struktur çərçivəsində toplanan məlumatlara əsasən Aİ-də fəaliyyət göstərən fermer təsərrüfatlarının illik gəlirini müəyyənləşdirmək üçün istifadə olunur.

Qeyd etmək lazımdır ki, Polşa Avropa İttifaqına (Aİ) qoşulduğu andan Polşa 79/65 EEC Şurasının 15 iyun 1965-ci il tarixli Qərarına əsasən, Müasir Kənd Təsərrüfatı Uçotu Sistemi - FADN (Farm Accountancy Data şəbəkəsi) həyata keçirilmişdir. Lakin, bu sistemdə kənd təsərrüfatı müəssisələrində çalışan fermerlərin iştirakı könüllüdür ki, bu da bu sistemin faydalılığını əhəmiyyətli dərəcədə azalda bilər (Sənaye və makro səviyyədə). Bu sistemin işğaldan azad olunmuş bölgələrdə fəaliyyət göstərən kənd təsərrüfatı sektoruna tətbiq etmək üçün iqtisadi vəziyyəti təsvir etməkdə istifadə oluna biləcək etibarlı məlumatlar olmalıdır. Bu da məhdud təsərrüfat idarəetmə imkanlarına gətirib çıxarır.

Hazırkı vəziyyətdə fermerlər tərəfindən mühasibat uçotunun aparılması, əsasən, kreditlər/ (maliyyə institutları tərəfindən tələb olunarsa) almaq üçün kəskin zərurətlə bağlıdır. İkinci mühüm ilkin şərt isə kənd təsərrüfatı üzrə məsləhətçilər tərəfindən təklif olunan kənd təsərrüfatı üzrə məsləhət xidmətlərinə çıxış ola bilər. Nadir hallarda, Mühasibat kitablarının idarə edilməsi, təsərrüfatın idarə edilməsi üçün faydalı (təsərrüfat iqtisadiyyatının daha dərin anlaşılması, strukturun təhlili və çəkilən xərclərin səviyyəsi) müəyyən dərəcədə əsaslandırılır.

Polşa FADN sistemi həm xarici orqanların, həm də daxili maraqlı tərəflərin, yəni kənd təsərrüfatlarının operatorları üçün faydalı ola biləcək məlumatları təqdim edir . Bu struktur çərçivəsində toplanan məlumatlardan Aİ-də fəaliyyət göstərən fermer

təsərrüfatlarının illik gəlirini müəyyənləşdirmək üçün istifadə olunur. FADN məlumatları və hesabatlarından kənd təsərrüfatı müəssisələrinə tətbiqi aşağıdakı məqsədlərin həyata keçirilməsini əhatə edir :

- kənd təsərrüfatlarının iqtisadi fəaliyyətini təhlil etmək üçün
- kənd təsərrüfatı və kənd təsərrüfatı bazarlarında ümumi vəziyyəti qiymətləndirmək üçün,
- kənd təsərrüfatında təklif olunan dəyişikliklərin təsirini qiymətləndirmək üçün.

Bu təcrübələrə əsaslanaraq Zəngilanda yeni yaradılacaq və ya bərpa olunacaq kənd təsərrüfatı müəssisələrinin əlaqələndirilməsi təşkil edilməlidir. Zəngilanda təməli qoyulan hava limanı ayrı-ayrı magistrallarla inteqrasiya edərək Azərbaycanın digər bölgələrindən , eləcə də xarici ölkələrdən işğaldan azad olunmuş ərazilərə gediş-gəliş və yüklərin daşınmasını asanlaşdıracaq. Kənd təsərrüfatı müəssisələrində ixracyönümlü məhsul istehsalının artırılması məqsədilə bu sahələrə maliyə dəstəyinin artırılması ilə yeni texnologiyaların tətbiqi vacibdir. Zəngilanda heyvandarlıq, tütünçülük, taxılçılıq, üzümçülük, arıçılıq, baramaçılıq sahələri böyük potensiala malik olduğundan bu sahələrə tətbiq olunacaq texnologiyalar müəssisələrin inkişafına da təkan verəcək.

Heyvandarlıq ilə məşğul olan kənd təsərrüfatı məhsul istehsalçılarını stimullaşdırmaq məqsədilə iribuynuzlu damazlıq heyvanların idxalının müəyyən faiz güzəştlə lizing yolu ilə satışının həyata keçirilməsi məqsədə uyğundur. Eyni zamanda heyvandarlıq sahəsində damazlıq-seleksiya işlərinin aparılması, zona baytarlıq laboratoriyalarının fəaliyyətinin genişləndirilməsi, heyvanların süni mayalandırılmasında istifadə olunan genetik materialın müayinəsi, yem istehsalının təşkili, bölgə üçün xarakterik olan heyvan xəstəliklərinə qarşı mübarizə tədbirlərinin aparılmasında dünya təcrübəsində istifadə olunan texnoloji yeniliklərin tətbiqi əsas məqsədlərdən olmalıdır. Bu sahə ilə məşğul olan müəssisələr xarici ölkə şirkətlərinin ferma avadanlığı, avtomatik yönləndirmə və yemləmə, sağım, soyutma sistemləri və digər avadanlıqla təchiz edilməlidir.

Zəngilanda potensiala malik sahələrdən biri də üzümçülükdür. Bu sahədə modul tipli emal müəssisələrinin yaradılması , aqrotexniki qulluq işlərində innovativ

texnologiyaların tətbiqinin genişləndirilməsi bu sahədə fəaliiyyət göstərən müəssisələrin inkişafına müsbət təsir göstərəcək. Elmi – tədqiqat institutları üzüm genofondunun qorunması , tədqiq edilməsi ilə sort tərkibinin zənginləşdirilməsi ilə səmərəli süfrə və texniki sortlarla süfrə üzümü və şərabçılıq istiqamətində istifadə olunan yeni iqtisadi əhəmiyyətli sortların yaradılması bioloji və təsərrüfat xüsusiyyətlərinin qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edəcək.

Müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara "GPS" quraşdırılması və onların düzgün dislokasiyası nəticəsində bu sahədə taxıl biçini 20 gün tez başa çatdığı üçün məhsuldarlıq da yüksək olur.(https://www.xalqqazeti.com , 2021)

Kənd təsərrüfatı müəssisələrinin istehsal vasitələri ilə təminatında yaranmış problemin həlli məqsədilə dövlət kənd təsərrüfatı müəssisələrinə texnikanın, mineral gübrələrin, ziyanvericilərə qarşı mübarizə vasitələrinin alınması üçün büdcədən vəsait ayırmaqla yanaşı, həm də onların aqrar istehsalçılara çatdırılmasına xidmət edən infrastrukturun formalaşdırılması ilə bağlı tədbirlər həyata keçirməlidir. Eyni zamanda, dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına xidmət edən infrastruktur obyektləri şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsi tədbirlərinin güzəştli şərtlərlə maliyyələşdirilməsinə böyük həcmli vəsaitlər ayrılmışdır.

Aqrar sahədə bazar infrastrukturunun inkişafı üzrə həyata keçirilən tədbirlər kənd təsərrüfatının texniki təminatının yaxşılaşdırılmasına, habelə aqrar sahədə istehsal edilən kənd təsərrüfatı məhsullarının itkilərinin azaldılması və keyfiyyəti saxlanılmaqla istehlakçılara çatdırılmasına şərait yaradır. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, hələlik bazar infrastrukturunun səmərəli fəaliyyət göstərən sistem kimi tam formalaşdırılması təmin edilməmişdir. İnfrastruktur sferasında modern texnologiyaların tətbiqi miqyasları və xidmətlərin keyfiyyəti zəruri tələblər səviyyəsində deyildir. Eyni zamanda bazar infrastrukturunun formalaşdırılması və fəaliyyətinin iqtisadi, təşkilati və institusional mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı məsələlərinin həlli xüsusi maraq kəsb edir.

Bildiyimiz kimi, işğaldan azad olunan rayonlarda aqrar sahədə fəaliyyət göstərən müəssisələrin formalaşması və inkişafında infrastrukturların əhəmiyyəti böyükdür. Onların sosial-iqtisadi inkişaf vəzifələrinin həlli ilə əlaqədar yeni infrastrukturların

yaranması, inkişafı və təkmilləşdirilməsi bazar münasibətlərinə uyğunlaşdırılmalıdır. Hər bir ölkədə infrastrukturlar cəmiyyətin artan tələbatına, ehtiyacların artmasına uyğun formalaşdırılmışdır.

- hər bir rayon üzrə iqlim amilləri nəzərə alınaraq kənd təsərrüfatı məhsul növləri üzrə istehsalın ixtisaslaşması üçün müvafiq tədbirlər həyata keçirilməlidir;

- aqrar sahədə rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasının stimullaşdırılması, xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, əsas ərzaq məhsulları ilə özünü təminetmə ilə bağlı tədbirləri davam etdirmək ;

- kənd təsərrüfatı müəssisələrində daha çox ekoloji cəhətdən təmiz texnologiyalara üstünlük verilməsi və təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırmaq;

- rayonlarda kənd təsərrüfatı məhsullarının istehsal edilməsi , onların tədarükü, saxlanması və satışı məqsədi ilə istixana, soyuducu və taxıl anbarı komplekslərinin (logistika mərkəzlərinin) yaradılmasını və inkişafının davam etdirilməsini təmin etdirmək;

- şəhərlərdə və regionlarda ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları bazarını formalaşdırmaq;

- azad edilmiş rayonlarda aqrar sahənin inkişafı üçün maddi-texniki bazanı möhkəmləndirmək və bazar prinsipləri əsasında fəaliyyət göstərilməsi nəzərdə tutulan yeni strukturlar yaratmaq. (https://atm.gov.az/pdf/ magazine/4.pdf , 2020)

### 3.3 Zəngilan rayonunun kənd təsərrüfatı müəssisələrinin dayanıqlı inkişafında səmərəli texnologiyaların tətbiqi və yeni infrastukturun yaradılması ilə bağlı dünya ölkələrinin təcrübəsinə əsaslanan uçot qaydaların təkmilləşdirilməsi

Kənd təsərrüfatı müəssisələrinin davamlı fəaliyyətinin təşkil edilməsində səmərəli və effektiv texnologiyaların tətbiqi zəruridir. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq ərzaq və digər kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsində kənd təsərrüfatı sistemləri və texnologiyaların davamlılığını artırmaq lazımdır. Zəngilanda fəaliyyəti nəzərdə tutulan kənd təsərrüfatları səviyyəsində sabitliyi artıra biləcək müvafiq texnologiyaların tətbiqinin stimullaşdırılmasında hökumətlərin və bazarların rolu nəzərdən keçirilməlidir. Texnologiyaların tətbiqinin stimullaşdırılması üçün müxtəlif yanaşmalar nəzərdən keçirilərək uçot qaydaları təkmilləşdirilməlidir. Çünki yeni yaradılan kənd təsərrüfatı müəssisələrində onların fəaliyyətlərinin nəticələrinin uçotu və gələcək strateji planlaşdırmanın seçilməsi onların mühasibat işinin keyfiyyətindən birbaşa asılıdır. Buna görə də kənd təsərrüfatı subyektində mühasibatlıqla bağlı nəzarəti gücləndirmək çox vacibdir.

Dünya təcrübəsinə nəzər salsaq görərik ki , Böyük xarici kənd təsərrüfatı şəbəkəsi olan Archer Daniels Midland ' s və Bunge ilə müqayisədə, Çinin kənd təsərrüfatı müəssisələrində aparılan uçot idarəetmə sistemi baxımından heç bir üstünlüyə malik deyil. Kənd təsərrüfatı subyektlərinin idarə edilməsi sistemində hələ də bəzi problemlər mövcuddur ki, bu da əsasən kənd təsərrüfatı kooperativlərində və ailə təsərrüfatlarında kiçik və orta kənd təsərrüfatı müəssisələrindədir. Müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi mühasibat uçotunun daha səmərəli təşkil olunmasına da müsbət təsir edir. (https://www.tandfonline.com , 2020 ) Çünki mühasibat uçotunun düzgün aparılması müəssisələrin fəaliyyətinin davamlılığı və inkişafı üçün olduqca əhəmiyyətlidir və təşəbbüskar sahibkarlar üçün biznes əməliyyatlarının düzgün uçotunun aparılması və səy göstərməsi son dərəcə vacibdir. Bunları nəzərə alaraq işğaldan azad edilmiş rayonlarda ilk növbədə düzgün uçot siyasəti aparılmalıdır. Yerli sərmayəçilərlə yanaşı xarici investorları şəffaf mühit daha çox cəlb edəcək.

Zəngilan rayonunda yeni infrastrukturun yaradılması aqrar istehsalın

genişləndirilməsinə , kənd təsərrüfatı istehsalının artmasına kömək edəcək. İqtisadi İnkişaf nəzəriyyəçiləri infrastrukturu kənd təsərrüfatının məhsuldarlığının ən mühüm tərkib hissəsi kimi müəyyənləşdiriblər. Bu o deməkdir ki, kənd təsərrüfatı məhsuldarlığı infrastrukturun adekvatlığından asılıdır, xüsusilə də kənd təsərrüfatı məhsuldarlığının artırılmasına kömək edən struktur. Aqrar sahədə infrastrukturun formalaşdırılması və təkmilləşdirilməsi bütövlükdə aqrar – sənaye sisteminin inkişafında mühüm rol oynayacaq. Aqrar sahədə infrastrukturun inkişafı kənd təsərrüfatı müəssisələrinin texniki bazasının yaxşılaşdırılmasına , bu sahədə itkilərin azalmasına , keyfiyyəti saxlanılmaqla məhsulların istehlakçılara çatdırılmasına şərait yaradır. Zəngilanın kənd təsərrüfatı müəssisələrində infrastrukturun formalaşdırılmasında aşağıda qeyd edilənlər nəzərə alınmalıdır.

- Rayonun təbii və iqlim şəraiti nəzərə alınaraq kənd təsərrüfatı məhsullarının istehsalında mütərəqqi texnologiyaların tətbiq edilməsi
- Aqrar sahədə davamlılığın təmin edilməsində dünya təcrübəsinə əsaslanan texnikadan səmərəli istifadə qaydalarının hazırlanması
- Aqrar sahədə fəaliyyət göstərəcək müəssisələrdə maddi – texniki bazasının möhkəmləndirilməsi və bazar prinsipləri uyğun olan strukturun formalaşdırılması

Müasir dövrdə rəqəmsal texnologiyalar inkişaf etmiş ölkələrin iqtisadiyyatının müxtəlif sahələrində tətbiq edilir. Məhsul yığımından tutmuş , tarlaların əkilib - becərilməsi , gübrələrin istehsalına , istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün texnikadan istifadəyə qədər hər bir yenilik kənd təsərrrüfatını yeni inkişaf mərhələsinə qaldırdı. Müasir aqrar inqilab daha az əl əməyindən istifadə və xərclərə qənaət edəcək qabaqcıl texnologiyaların tətbiqini nəzərdə tutur , eyni zamanda məhsuldarlığı da artırır.

Rusiya Kənd Təsərrüfatı Nazirliyi bu istiqamətdə fəal işləyir. "Rəqəmsal kənd təsərrüfatı" layihəsi ötən il 2024-cü ilə qədər icra müddəti ilə hazırlanmışdır. Onun əsas məqsədi aqrar - sənaye kompleksində texnoloji sıçrayış və "rəqəmsal" kənd təsərrüfatı müəssisələrində məhsuldarlığın artmasına nail olmaq üçün rəqəmsal texnologiyaların və

platforma həllərinin tətbiqi ilə kənd təsərrüfatının rəqəmsallaşdırılmasıdır. (https://iopscience.iop.org/article , 2021)

Rusiya aqrar-sənaye kompleksinə daxil edilə bilən yeni texnologiyalar arasında fermer təsərrüfatlarının idarə edilməsi üçün proqram sistemləri, robotlaşdırılmış sistemlər, kənd təsərrüfatı obyektlərinin monitorinqi üçün pilotsuz uçuş aparatları, dəqiq əkinçilik texnologiyası yer alır. Bu texnologiyalardan istifadə torpağın və bitkilərin vəziyyətini qiymətləndirməyə, torpağın məhsuldarlığını artırmağa, gübrənin və bitkilərin mühafizəsi vasitələrinin xərclərini optimallaşdırmağa, habelə əlavə suvarmaya ehtiyacı olan sahələri müəyyən etməyə imkan verir.

Bu qurğulardan istifadə real vaxt rejimində kənd təsərrüfatı texnikasının harada yerləşdiyini, hansı rejimdə olduğunu (işləyir və ya istirahət edir), yanacaq sərfinin nə olduğunu, emal olunan torpaqların hansı sahəsini və s.görməyə imkan verir. Müasir İT texnologiyaları işçi qüvvəsinin uçotunu və onun ödənişini yaxşılaşdırmağa imkan verir. Bu məsələ kənd təsərrüfatı üçün xüsusilə aktualdır.

Bütün bunların nəticəsində kənd təsərrüfatı müəssisələrində mühasibat uçotunun təkmilləşdirilməsi kənd təsərrüfatı məhsullarının həcmi barədə düzgün məlumat əldə etməyə , mövcud kənd təsərrüfatına yararlı torpaqlardan istifadə olunamsının səmərəliliyinin artırılmasına , dövlət tərəfindən edilən güzəştlərin , ayrılan subsidiyaların, yardımların , kənd təsərrüfatı istehsalçılarına verilən güzəştli kreditlərin onların fəaliyyətlərinin daha məhsuldar və səmərəli təşkil edilməsinə və bunun nəticəsində istehsalın həcminin artırılmasına və bu sahədə çalışanların rifahının yüksəldilməsinə nail olunmasına xidmət edəcək.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

İşğalından azad edilmiş Zəngilan və digər rayonlarda bərpa və yenidənqurma işləri ilə yanaşı, bu ərazilərdə fəaliyyət göstərəcək kənd təsərrüfatı müəssisələrinin ölkə iqtisadiyyatına inteqrasiyası istiqamətində tədbirlər həyata keçirilir. Strateji plana əsasən, rayonda kənd təsərrüfatı , istehsal, emal, ticarət və xidmət infrastrukturunun yaradılması, yeni texnika və texnologiyaların tətbiqi, yerli və xarici investisiya cəlbediciliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə azad olunmuş torpaqlara qayıdacaq əhalini , orda fəaliyyət göstərəcək sahibkarları həvəsləndirmək üçün xüsusi güzəştlərin, müxtəlif iqtisadi, maliyyə və institusional stimulların tətbiqi hazırlanır.

Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli Sərəncamına əsasən azad edilmiş rayonlarda resurs və infrastruktur potensialından səmərəli istifadə edilərək dövlət – özəl sektorun əməkdaşlığı çərçivəsində biznes üçün əlverişli mühit yaradılmalıdır.

Kənd təsərrüfatı məhsulları istesal edən müəssisələrin dövlət büdcəsinin vəsaitləri hesabına güzəştli kreditlə maliyyələşməsi bu sahəyə göstərilən diqqətin nümunəsidir. Nəticədə bu sahə ilə məşğul olan sahibkarların xərcləri azalacaq , onların fəaliyyətinin davamlılığı təmin olunacaq və yerli məhsullar da istehlakçılara ddaha münasib qiymətlərlə təklif olunacaq . Eyni zamanda iqtisadiyyatın inkişafında rol oynayaraq ərzaq təhlükəsizliyinin təmin olunmasında iştirak edəcəklər.

İşğaldan azad olunmuş rayonlarda tətbiq olunacaq güzəştlərə əsasən Qarabağda kənd təsərrüfatı məhsul istehsalı ilə məşğul olacaq mülkiyyətçilər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunacaqlar. Həmin bölgələrin sənaye zonalarının investisiya cəlbediciliyinin artırılması məqsədilə hazırda Sənaye-Texnoloji Parklarda və Ələt Azad İqtisadi Zonasında vergi və gömrük siyasəti təşviq edilir və bu güzəştlər işğaldan azad edilmiş ərazilərdəki sənaye müəssisələrinə də şamil ediləcək.

İşğaldan azad edilmiş ərazilərin bərpası layihələrində iştirak etmək məqsədilə 50-dən çox xarici şirkət hökumətə müraciət edib. Həmin ölkələr arasında Türkiyə,

Rusiya, Pakistan, Macarıstan, Qazaxıstan, Çin, İtaliya, İsrail və Cənubi Koreya şirkətləri var. Həmin şirkətlər üçün vergi güzəştlərinin tətbiqi nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən 980 yerli sahibkarlar Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edərək işğaldan azad edilmiş iqtisadi rayonlarda işləmək niyyətində olduqlarını bildiriblər. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar, o cümlədən kiçik və orta sahibkarlar gəlir vergisindən azad olunacaqlar.

İnvestisiya təşviqi sənədi alan çoxlu sayda yerli sahibkarlar üçün qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəştlərini ödəmək asanlaşacaq. Çünki investisiya sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar 7 il müddətinə bir sıra vergi və rüsumlardan azaddırlar: hüquqi şəxslər və fərdi sahibkarlar mənfəətin 50%-dən gəlir vergisi, vəsait hesabına əldə etdikləri əmlak üzrə əmlak vergisi ödəyirlər. müvafiq investisiya layihəsi çərçivəsində investisiya fondlarının mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlar üzrə torpaq vergisi təsdiqedici sənəd əsasında maşın, texnoloji avadanlıq və konstruksiyaların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad edilir.

2022-ci il yanvarın 1-dən 3 il müddətinə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı, o cümlədən kənd təsərrüfatı texnikasının operativ lizinqinə və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlərə görə ticarət güzəştləri üzrə ƏDV-nin hesablanmasına başlanılıb , məhsullar da ƏDV-dən azadmedilib. Ona görə də artıq məlumdur ki, bu qrupa daxil olan sahibkarların heç də hamısı işğaldan azad edilmiş ərazilərdə ən azı 5 növ vergi ödəməyəcək.

Vergi Məcəlləsinə dəyişikliklərdən sonra digər biznes iştirakçıları üçün vergi güzəştləri tətbiq olunacaq.

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün sosial sığorta və digər güzəştlər tətbiq olunacaq. İqtisadiyyat Nazirliyinə və Mərkəzi Banka, həmçinin işğaldan azad edilmiş ərazilərdə çalışan sahibkarlara daha çox güzəştli və güzəştli bank kreditlərinin verilməsi tapşırılıb. Sahibkarların təqdim etdiyi biznes planda əraziləri işğaldan azad edilmiş layihələrə üstünlük veriləcək və onlar ilk növbədə güzəştli kreditlər alacaqlar.

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərəcək kənd təsərrüfatı müəssisələrinin iqtisadi stimullaşdırılması ilk növbədə kənd təsərrüfatında mühüm dönüş yaradacaq. Zəngilan rayonunda əkinçilik və heyvandarlıq sahəsində tarixi potensialı və təbii relyefinin xüsusiyyətləri nəzərə alaraq gələcəkdə də bu sahələrin inkişafı ilə kənd təsərrüfatı məhsulları üstünlük təşkil edəcəkdir. Rayonda üzümçülük, tütünçülük, arıçılıq müəssisələri bərpa edilərək genişləndiriləcək. Bundan əlavə, rayonda yeni kənd təsərrüfatı layihələri və intensiv bağçılıq da nəzərdə tutulub. Həm xarici, həm də yerli investisyaların cəlb edilməsi və tətbiq olunacaq güzəştlərə təklif olunur;

1. Işğaldan azad olunan rayonlarda investisiya cəlbediciliyini təkmilləşdirilməsi məqsədilə özəl təsərrüfat subyektlərinin stimullaşdırılması üçün xammalın əldə olunması zamanı müəyyən vergi və gömrük güzəştlərin edilməsi təklif edilir ;

2. İşğaldan azad edilmiş rayonlarda fəaliyyət göstərən sahibkarlar üçün kommunal xidmətlərin ödənilməsində güzəştlərin edilməsi təklif edilir ;

3. Məskunlaşacaq əhalinin yerləşməsi üçün dövlət ilə özəl sektorun birgə fəaliyyətinin təmin edilməsi ilə yaşayış massivlərinin tikilməsi təklif olunur ;

4. İxtisaslı kadrların cəlb edilməsi məqsədilə təklif olunan əmək haqqı məbləğinin mövcud şərait nəzərə alınaraq düzgün müəyyənləşdirilməsi təklif edilir

5. Eyni zamanda tətbiq olunan vergi dərəcələrinin müəyyən müddət üçün aşağı salınması ilə həmin ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün faizsiz kreditlərə çıxış imkanı yaradılması təklif edilir;

## İSTİFADƏ OLUNUMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu
2. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (14 aprel 2009-cu il).
3. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı
4. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı
5. "Azərbaycanın statistik göstəriciləri" Statistik məcmuə / 2020
6. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi
7. "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" Bakı, 2022
8. Cəbiyev R.M. (2000 ) Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı, Bakı səh 29
9. Əhmədov G. Ə. ( 2010) Kənd təsərrüfatı innovasiyaların tətbiq istiqamətləri. Bakı səh 111
10. Həsənli M.X. (2009), Vergilər, Bakı, Azərnəşr, 426 səh.
11. Həsənov R.T. (2012), Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları, Bakı, Qanun, 343 səh.
12. Məmmədov R.K. ( 2017 ) Kənd təsərrüfatı müəssisələrində uçot siyasətini qurulması və tətbiqi problemləri. // AMEA İqtisadiyyat İnstitutunun elmi əsərləri, №4, səh. 110-118,
13. Nazim Müzəffərli, Eldar İsmayılov (2010 ) Azərbaycanın post-konflikt ərazilərinin bərpası : Konseptual əsaslar Bakı .,səh 33 – 48
14. Həsənov R.T. (2012), Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları, Bakı, Qanun, 343 səh.

15.“Kəndli (fermer) təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanunu.
16.“Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 04 yanvar tarixli Fərmanı
17. Nazim Müzəfərli, Eldar İsmayılov ( 2020 ) Azərbaycan post-konflikt ərazilərinin bərpası , Bakı 2020
18. Səmədzadə Z., “Dağlıq Qarabağ: naməlum həqiqətlər”, Bakı, “Vətən” nəşriyyatı, 1995.

## İngilis dilində

1. Chollet, D & Goldgeier, JM, ( 2005) The faulty premises of the next Marshall Plan. The Washington Quarterly, 29(1): 7-19
2. Doğan, Z., Arslan, S., Köksal,A.G(2013). Hıstorıcal Development Of Agrıcultural Accountıng And Dıffıcultıes Encountered In The Implementatıon Of Agrıcultural Accountıng, International Journal Of Food And Agricultural Economics , Vol. 1 No. 2 p 107 – 110
3. Hough, RL, (1969) Development and security in Thailand: Lessons from other Asian countries. Asian Survey, 9(3): 178-87
4. Hoffmann, Stanley and Charles Maier ( 1984 ) eds. The Marshall Plan: a Retrospective. Boulder, Westview Press, 139 p.
5. Hogan, Michael J. (1987 ) The Marshall Plan: America, Britain, and the Reconstruction of Western Europe , 1947-1952 . Cambridge University Press,.482 p.
6. Kirjushin V I 2014 The problems of innovative development of agriculture Innovations p 1 – 3
7. Richter, JH, 1950. The European Recovery Program: Programs, developments and prospects in agriculture. Journal of Farm Economics, 32(4): 541-52
8. Zurayk, R., et al. (2018), “Agriculture, conflict and the agrarian question in the 21st century”, Book: Crisis and Conflict in Agriculture p 28 – 33

**Rus dilində**

1. Э.О.Джафаров «О восстановлении и перспетивах развития социально-экономического потенциала Карабаха», Вышка – 27.08.2021год.
2. Лисович Г. М. ( 2013 ) Бухгалтерский финансовый учет в сельском хозяйстве: Учебник. — М.: Вузовский учебник: ИНФРА — М. 318 с
3. Попова Л.В., Миронов О.А. ( 2016 ) Особенности ведения бухгалтерского учета в сельскохозяйственных организациях//Информационное обеспечение эффективного управления деятельностью экономических субъектов. – С. 18-23
4. Указ Президента Азербайджанской Республики от 07 июля 2021 года «О новом делении экономических районов в Азербайджанской Республике».

**Türk dilində**

1. Avder, E. (2012). “Geçmişten Günümüze Muhasebe Mesleği”
2. Tunçez, H. A., (2011).Tarımsal Faaliyetlerin Muhasebeleştirilmesinin Türkiye Muhasebe Standardı-41

**İnternet resursları**

1. https://www.taxes.gov.az/az/post/1690
2. https://e-qanun.az/framework/8245
3. http://ulfet-az.com
4. https://aqreqator.az/az/iqtisadiyyat/1066365
5. https://atm.gov.az/pdf/magazine/4.pdf

## Cədvəllərin Siyahısı

**Cədvəl 1:** Marşal planına daxil olan ölkələr və alınan yardım həcmləri...........................14

**Cədvəl 2:** Bitkiçilik məhsulları üzrə illər arzində dəyişim...............................................38

**Cədvəl 3:** Bitkiçilik məhsullarının illər üzrə məhsuldarlığı..............................................39

**Cədvəl 4:** Bitkiçilik məhsulları üzrə illər arzində dəyişim...............................................40

## Diaqram Siyahısı

**Şəkil 1:** İribuynuzlu və xırdabuynuzlu heyvandarlıq sahəsində heyvanların sayındakı dəyişim ....37